

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

1993-cü il 3 oktyabr: Azərbaycanın milli qürur və iftixar tarixi




6

# 50 ildən sonra yenidən Azərbaycanda!

2




*İLHAM ƏLİYEV: "74-cü Beynəlxalq Astronavtika Konqresi Azərbaycanda kosmos sənayesinin və aparıcı texnologiyaların inkişafına töhfə verəcək"*

SƏS
№ 179 (6862)
3 oktyabr 2023-cü il.
Qiyməti 60 qəpik

# Parisin Cənubi Qafqaz planı:
# YENİ MÜHARİBƏ



8

## Sıra mədəniyyəti, yoxsa mədəniyyətsizliyi?



13

## Əli Kərimli təsir altında olduğunu nümayiş etdirir



14

## Ermənistana yardım yağır

Xocalıdakı qətliama susanlar Xankəndidən sivil yollarla köçən ermənilərə yardım edir




15

## "Qarabağ" dastanının "Suqovuşan" boyu



11

## İşə qəbul zamanı şəxsdən məhkumluq arayışı istənilməlidir?



16

# 50 ildən sonra yenidən Azərbaycanda!




## İLHAM ƏLİYEV: "74-cü Beynəlxalq Astronavtika Konqresi Azərbaycanda kosmos sənayesinin və aparıcı texnologiyaların inkişafına töhfə verəcək"

***Son illərdə beynəlxalq tədbirlərin, siyasi toplantıların əsas ünvanlarından birinə çevrilən Azərbaycanın daha bir mötəbər tədbirə ev sahibliyi etməsi ölkəmizin siyasi nüfuzunun təzahürüdür. Belə ki, Bakı oktyabrın 2-dən etibarən beş gün ərzində daha bir mötəbər tədbirə - 74-cü Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etməyə başlayır. Oktyabrın 6-dək davam edəcək Konqresə 100-dən artıq ölkədən 5 mindən çox nümayəndə qatılıb.***








Azərbaycanın ilk dəfə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə 1973-cü ildə Bakıda keçirilən Beynəlxalq Astronavtika Konqresinə 50 il sonra yenidən ev sahibliyi etməsi böyük rəmzi məna daşıyır. Bu dəfə ölkəmiz Konqresə müstəqil dövlət kimi ev sahibliyi edir. Bu, Azərbaycanın müasir texnologiyalar, rəqəmsal inkişaf və kosmik sənaye quruculuğu sahəsində qazandığı mühüm nailiyyətlərə beynəlxalq səviyyədə göstərilən yüksək diqqət və hörmətin parlaq göstəricisidir. Dünya miqyasında ən mötəbər tədbirlərdən biri olan bu Beynəlxalq Konqresin ikinci dəfə Azərbaycanda keçirilməsi həm də ölkəmizdə kosmik sənayenin inkişafına, beynəlxalq kosmik ictimaiyyət və onu təmsil edən Beynəlxalq Astronavtika Federasiyası (IAF) ilə əməkdaşlığın genişləndirilməsinə, habelə qlobal kosmos sənayesinə daha yaxından inteqrasiya istiqamətində misilsiz imkanlar yaradacaq.

Bu mötəbər tədbirin ölkəmizdə keçirilməsi barədə qərar 2019-cu ilin oktyabrında ABŞ-ın paytaxtı Vaşinqtonda qəbul edilib. Belə ki, Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilər zamanı Bakı şəhəri Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanıb. Həmin seçkilərdə Azərbaycan paytaxtı bu mötəbər tədbirə ev sahibliyi üçün namizədliyini irəli sürmüş Rio-de-Janeyro, Nyu-Dehli və Sinqapur kimi müasir və inkişaf etmiş şəhərləri geridə qoyaraq qalibiyyət əldə edib.

Prezident İlham Əliyevin 2022-ci il 7 fevral tarixli Sərəncamı ilə 74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Baş nazirinin sədrliyi ilə Təşkilat Komitəsi yaradılıb. Enyi zamanda, Konqreslə əlaqədar ölkəmizə gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Prezident İlham Əliyev tərəfindən başqa bir Sərəncam da imzalanıb. Həmin Sərəncama əsasən, bu mötəbər tədbirlər əlaqədar Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2023-cü il sentyabrın 20-dən oktyabrın 7-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala biləcəklər.

Dövlətimizin başçısının 2022-ci il 7 fevral tarixli Sərəncamında kosmik sənaye və peyk xidmətləri sahəsində əldə edilmiş təcrübənin, formalaşmış yeni insan kapitalı və etibarlı tərəfdaş imicinin təzahürü olaraq, Azərbaycanın Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazandığı vurğulanır. Eyni zamanda, Sərəncamda bildirilir ki, Azərbaycanda müasir texnologiyaların geniş tətbiqi, rəqəmsal inkişaf və kosmik sənaye quruculuğu sahəsində mühüm nailiyyətlər əldə edilib. Ötən illərdə hərtərəfli dövlət dəstəyi ilə ölkədə kosmik sənaye üzrə müasir infrastruktur yaradılmış, informasiya təhlükəsizliyinin vacib komponenti olan telekommunikasiya peykləri orbitə buraxılmış, xarici dövlətlərin peyklərindən asılılıq aradan qaldırılmış və peyk xidmətlərinin ixracına başlanılıb. Mövcud peyk şəbəkəsi ölkəmizin suverenliyinin qorunması ilə yanaşı, onun sosial-iqtisadi inkişafına da mühüm dəstək verir. Uğurlu peyk layihələri sayəsində Azərbaycan dünya kosmik ailəsinin bir üzvünə çevrilərək beynəlxalq kosmik icmada böyük nüfuz qazanıb.

Oktyabrın 2-də Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində Azərbaycan Reüspublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev tədbirdə iştirak ediblər. Dövlətimizin başçısı Konqresin açılış mərasimində çıxış edərək çox mühüm məsələrə toxunaraq, Astronavtika Konqresində Azərbaycanın inkişaf göstəriciləri barədə bəzi rəqəmləri açıqlayıb.

Ardı Səh. 3

# 50 ildən sonra yenidən Azərbaycanda!












Əvvəli-Səh-2

### SON 30 İLDƏ AZƏRBAYCANA 300 MİLYARD DOLLARDAN ARTIQ VƏSAİT QOYULUB

Prezident İlham Əliyev Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində çıxışında bildirib ki, son 20 ildə ümumi daxili məhsulumuzun 4 dəfə, büdcə gəlirimizin 30 dəfə, xarici ticarət dövriyyəmizin 10 dəfə artdığını deyən dövlətimizin başçısı bildirib: "Biz xarici borcumuzu ÜDM-in 10 faizinə endirə bilmişik. 2024-cü ilin sonuna qədər planlarımıza uyğun olaraq bu rəqəm 7-7,5 faiz olacaq. Xarici valyuta və qızıl ehtiyatımız ÜDM-dən 10 dəfə artıqdır. Yəni, biz istədiyimiz vaxtda və iki ay ərzində borcumuzu bağlaya bilərik". Ölkəmizdə sərmayə mühiti çox müsbət olduğunu vurğulayan Prezident İlham Əliyev son 30 ildə Azərbaycana 300 milyard dollardan artıq vəsait qoyulduğunu deyib

### "BİZ ŞƏHİDLƏR VERƏRƏK BMT-NİN QƏTNAMƏLƏRİNİN İCRASINI TƏMİN ETDİK"

Prezident İlham Əliyev çıxışı zamanı bildirib ki, bizim ərazi bütövlüyümüzü bərpa etmə təcrübəsi çox misilsiz və unikal bir hadisədir. Biz münaqişəyə son qoyduq. O münaqişənin həll edilməsi nəticəsində biz ləyaqətimizi qoruduq, beynəlxalq hüququ bərpa etdik: "Bu gün Cənubi Qafqazda sülh dövrünə qədəm qoya bilərik. Bu, bizim fikrimizdir. Əməkdaşlıq, birgə mənfəət götürülməsi, qarşılıqlı fayda – bu gün biz bunların hamısını nümayiş etdiririk".

Prezident İlham Əliyev açılış mərasimində çıxışında söyləyib ki, üç il əvvəl biz əsas hədəfimizə nail olduq, 30 il ərzində pozulmuş ərazi bütövlüyümüzü bərpa etdik: "Biz işğalın, etnik təmizləmənin qurbanı olmuşuq. Bu, bizim xalqımız üçün böyük faciə idi və böyük humanitar fəlakət idi. Biz uzun illər ərzində çalışırdıq ki, münaqişəni dinc yolla həll edək və işğala dinc yolla son qoyaq".

28 il ərzində danışıqlar prosesinə güclü sadiqliyimizi nümayiş etdirdiyimizi, lakin üç il əvvəl BMT-nin Nizamnaməsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə etdiyimizi vurğulayan dövlətimizin başçısı bildirib: "Biz 3 il bundan əvvəl ərazilərimizi işğaldan azad etdik, işğala son qoyduq. Ötən ay isə bütün ölkə ərazisində suverenliyimizi tam bərpa etdik".

Prezident İlham Əliyev təəssüflə vurğulayıb ki, münaqişəyə son qoymalı olan o beynəlxalq təşkilatlar bu istiqamətdə heç bir nəticə əldə etmədilər. "BMT-nin dörd qətnaməsi Ermənistan qoşunlarının ərazimizdən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Lakin bu qətnamələr 27 il kağız üzərində qaldı. Biz şəhidlər verərək bu qətnamələrin icrasını təmin etdik», - deyə dövlətimizin başçısı bildirib.

### "AZƏRBAYCAN ETİBARLI TƏCHİZATÇI OLARAQ BEYNƏLXALQ BAZARLARA ENERJİ NƏQL EDİR"

"Bu gün enerji və nəqliyyat xəritələrinə baxsanız, o cümlədən boru kəmərlərinə nəzər salsanız, görəcəksiniz ki, burada Azərbaycanın izi var. Biz bir sıra layihələrin təşəbbüskarı olmuşuq və tərəfdaşlarımızla birlikdə onları uğurla həyata keçirmişik. Bununla da təkcə bizim bölgənin deyil, daha geniş regionun enerji təhlükəsizliyini təmin etmişik". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində çıxışında söyləyib.

Bu gün enerji təhlükəsizliyinin hər bir ölkənin milli təhlükəsizliyi məsələsinə bərabər olduğunu, onun vacib elementini təşkil etdiyini vurğulayan dövlətimizin başçısı diqqətə çatdırıb ki, Azərbaycan etibarlı təchizatçı olaraq beynəlxalq bazarlara enerji nəql edir və Avropa İttifaqı tərəfindən PanAvropa təchizatçısı kimi dəyərləndirilir.

Prezident İlham Əliyev 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində çıxışında vurğulayıb ki, bizim təbii sərvətlərimiz Azərbaycan xalqının mənafeyi naminə istifadə edilib: "Azərbaycan XIX əsrin ortalarında dünyada neft hasil edən ilk ölkə olub. O zaman biz dünya neft hasilatının həcminin yarısını hasil edirdik. Ola bilər bir çox adam bilmir ki, dənizdə də ilk neft hasilatı Azərbaycan neftçiləri tərəfindən XX əsrin ortalarında həyata keçirilib".

"Bu gün müstəqil olduğumuz dövrdə bizim təbii sərvətlərimiz Azərbaycan xalqının mənafeyi naminə istifadə edilib. Müstəqillik dövründə Azərbaycanın dinamik inkişafı onu nümayiş etdirir ki, biz öz sərvətlərimizdən düzgün istifadə etmişik", - deyən dövlətimizin başçısı bildirib ki, ölkəmiz bu sərvətlərdən güclü iqtisadiyyat qurmaq üçün istifadə edib.

### "AZƏRBAYCANIN ƏSRLƏR BOYU ÇOXMİLLƏTLİ, ÇOXDİNLİ, ÇOXKONFESSİYALI CƏMİYYƏTİ OLUB"

Prezident İlham Əliyev çıxışı zamanı qeyd edib ki, əsrlər boyu Azərbaycanın çoxmillətli, çoxdinli, çoxkonfessiyalı cəmiyyəti olub. 30 illik müstəqillik dövrümüzdə biz bu amilləri gücləndirmişik. Dövlətimizin başçısı bildirib ki, biz bunu sabitliyin, proqnozlaşdırmanın və bütün konfessiyaların nümayəndələri arasında birgəyaşayış nümunəsi hesab edirik. Biz bir vahid ailə kimi yaşayırıq.

Azərbaycan Prezidenti onu da söyləyib ki, eyni zamanda, Avropa İnstitutları ilə əməkdaşlığımız uğurla inkişaf edir. Avropa İttifaqının bir neçə üzvü ilə Azərbaycan strateji tərəfdaşlıq haqqında bəyannamə imzalayıb: "Bu, onu nümayiş etdirir ki, bizim xarici siyasətimiz açıqdır, əməkdaşlığa yönəlib və daha geniş regional inkişafa xidmət edir". Azərbaycanın iki mühüm beynəlxalq təsisatın İƏT-in və Avropa Şurasının üzvü olduğunu xatırladan dövlətimizin başçısı vurğulayıb: "Azərbaycan azsaylı ölkələrdən biridir ki, hər iki təsisatın üzvüdür. Bu iki vacib təşkilat 100-dən artıq ölkəni birləşdirir".

### "AZƏRBAYCANIN QOŞULMAMA HƏRƏKATINA SƏDRLİYİNİN UZADILMASI ÖLKƏMİZƏ GENİŞ BEYNƏLXALQ DƏSTƏYİN TƏZAHÜRÜDÜR"

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan beynəlxalq ictimaiyyətin fəal üzvü kimi müxtəlif siyasi, iqtisadi, regional inkişaf proqramlarında iştirak edir: «Dördüncü ildir ki, biz BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına sədrlik edirik. Bizim bu təşkilata sədrliyimiz yekdil qərarla - 120 ölkənin yekdil qərarı ilə uzadılıb. Bu, həqiqətən də Azərbaycanın malik olduğu geniş beynəlxalq dəstəyin təzahürüdür».

Prezident İlham Əliyev çıxışında vurğulayıb ki, 74-cü Beynəlxalq Astronavtika Konqresi Azərbaycanda kosmos sənayesinin və aparıcı texnologiyaların inkişafına töhfə verəcək. Müasirləşmənin Azərbaycanın gələcəklə bağlı baxışlarını, gündəliyini və planlarını əks etdirdiyini vurğulayan dövlətimizin başçısı bildirib: "Müstəqillik dövründə Azərbaycan beynəlxalq ictimaiyyətin fəal üzvünə çevrilib. Bizim siyasətimiz hər zaman aydın, şəffaf və birmənalı olub, dostların qazanılmasına və əməkdaşlığın gücləndirilməsinə xidmət edib".

"Azərbaycan 10 ildən artıqdır ki, beynəlxalq kosmos klubunun üzvüdür. Bu gün bizim iki telekommunikasiya və bir Yer səthinin müşahidəsi peykimiz var". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimindəki çıxışında söyləyib. Dövlətimizin başçısı bildirib: "Biz bu sahəni Azərbaycanda inkişaf etdirməyə davam edirik".

Bir sözlə, 74-cü Beynəlxalq Astronavtika Konqresinin ölkəmizdə keçirilməsi bir daha ölkəmizin nüfuzunun təzahürü olmaqla, Prezident İlham Əliyevin beynəlxalq miqyasda yüksək nüfuzunun və qlobal liderliyinin bariz nümunəsidir. Ona görə də Sinqapur, Braziliya və Hindistan kimi rəqiblər arasında Azərbaycana üstünlük verilməsi həm ölkəmizə olan etimadın, həm də inamın göstəricisidir.

*RƏFİQƏ KAMALQIZI*

# Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində sərgi təşkil olunub

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sərginin açılışında iştirak ediblər*

Dünən Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində sərgi təşkil olunub. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev sərginin açılışında iştirak ediblər. Sərginin rəmzi açılışını bildirən lentin kəsilməsindən sonra iştirakçı şirkətlərin stendləri ilə tanışlıq olub. Məlumat verildi ki, 8 min kvadratmetr sahədə yaradılan sərginin pavilyonunda 36 ölkədən 150 şirkətin stendləri iştirakçılara təqdim edilir.





Dövlətimizin başçısı və birinci xanım Türk Kosmik Agentliyinin, Səudiyyə Ərəbistanının Kosmik Agentliyinin, ABŞ-ın Milli Aeronavtika və Kosmos Administrasiyasının (NASA), Hindistanın Kosmik Tədqiqatlar Təşkilatının, "Israel Aerospace Industries" şirkətinin, İtaliyanın Aeronavtika və Astronavtika Assosiasiyasının, Çinin Astronavtika Cəmiyyətinin və digər şirkətlərin stendlərinə baxdılar.

Qeyd edək ki, 74-cü Beynəlxalq Astronavtika Konqresi kosmik sahədən olan 22 şirkətin əldə etdiyi sponsorluq paketinin sayına görə rekord həddə çatıb. Belə ki, Bakı Konqresi beynəlxalq sponsorluq paketinin satışı üzrə Avstraliya, Almaniya, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri və Fransada keçirilən konqresləri geridə qoyub. Konqresin ümumilikdə 30-dan çox sponsoru var.

Konqresin "premium", "platinium", "qızıl", "gümüş" və "bürünc" sponsorluq paketlərini əldə edən şirkətlər arasında ABŞ-ın "Space X", "Axiom Space", "Blue Origin", "Boeing", "Lockheed Martin", "BlackSky" "Vast", "Northrop Grumman" şirkətləri, Çinin Astronavtika Cəmiyyəti, Türkiyənin Kosmik Agentliyi, "Plan S" texnologiya şirkəti, Səudiyyə Ərəbistanının Kosmik Agentliyi, "Israel Aerospace Industries" şirkəti, Birləşmiş Ərəb Əmirliklərinin Muhammed Bin Rəşid Kosmik Mərkəzi, Hindistan Kosmik Tədqiqatlar Təşkilatı, Yaponiya Aerokosmik Tədqiqatlar Agentliyi, "ispace", "JGC Holdings Corporation", "Astroscale" şirkətləri, "Airbus" şirkətinin Almaniyadakı ofisi, Beynəlxalq Kosmik Rabitə Təşkilatı "İntersputnik", Portuqaliyanın "Neuraspace", Bolqarıstanın "EnduraSat", Avstriyanın "Asgardia Space", İtaliyanın Aeronavtika və Astronavtika Assosiasiyası, Böyük Britaniyanın Kosmik Agentliyi, Amazonun "Kuiper" layihəsi, "Jet Propulsion Laboratory", "Voyager Space" şirkətləri yer alır.

# Prezident İlham Əliyev Anqlikan Kilsəsinin dini rəhbərini qəbul edib



***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 2-də Anqlikan Kilsəsinin dini rəhbəri, Kenterberi Arxiyepiskopu Castin Velbini qəbul edib. Qonağı salamlayan dövlətimizin başçısı onun səfərinin əhəmiyyətinə toxundu. Anqlikan Kilsəsinin dini rəhbəri, Kenterberi Arxiyepiskopu Castin Velbi Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Qonaq Azərbaycanın multikulturalizm və konfessiyalararası dialoqda rolunu qeyd etdi, Vatikanla Azərbaycan arasındakı əlaqələrə toxundu, Vatikanda katakombaların bərpası işinə ölkəmizin töhfəsini yüksək qiymətləndirdi.***

Dövlətimizin başçısı müstəqilliyimizin ilk illərində ölkəmizin üzləşdiyi çətinliklərə toxunaraq, həmin dövrdə ərazimizin 20 faizinin işğal edilməsi, 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrilməsi, iqtisadi-siyasi böhranın hökm sürməsi, iqtisadi sahədə tənəzzülün və daxili qeyri-sabitliyin yaşanmasından danışdı. Azərbaycanın sülh müqaviləsi ilə bağlı təşəbbüslə çıxış etdiyini bir daha vurğulayan Prezident İlham Əliyev sülh gündəliyinin irəli aparılması üçün regionda tarixi imkanların və fürsətlərin yarandığını bildirdi, hazırda ölkəmizin bu istiqamətdə göstərdiyi səylərə toxundu.

Azərbaycan Prezidenti antiterror tədbirləri dayandırıldıqdan sonra mərkəzi hökumət tərəfindən Qarabağ bölgəsində yaşayan erməni əhalisinə genişmiqyaslı humanitar yardımlar edildiyini vurğuladı, miqrasiya, sosial müdafiə və səhiyyə sahələri ilə bağlı əhaliyə yerində xidmətlər göstərildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qarabağın erməni sakinlərinin hüquqlarının və təhlükəsizliyinin təmin olunması ilə bağlı geniş ictimaiyyətə, həmçinin ermənilərə ünvanlanmış bəyanat verdiyini vurğuladı.

Prezident İlham Əliyev Qranadada keçiriləcək qarşıdan gələn görüşün regionda sülh gündəliyinin inkişafına təkan verəcəyinə ümidvarlığını ifadə etdi. Qonaq bu cür postmünaqişə şəraitində etimad quruculuğu və etnik barışığın vacib olduğunu deyərək, bununla bağlı öz təcrübəsini bölüşməyə hazır olduğunu bildirdi. Söhbət zamanı etnik barışığın və vətəndaş cəmiyyəti təşkilatlarının rolu qeyd edildi.

# Prezident İlham Əliyev Beynəlxalq Astronavtika Federasiyasının prezidentini qəbul edib

Prezident İlham Əliyev sentyabrın 30-da Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Kley Mourini qəbul edib. Dövlətimizin başçısı Azərbaycanda keçiriləcək 74-cü Beynəlxalq Astronavtika Konqresinin əhəmiyyətinə toxunaraq, bu tədbirə ev sahibliyi etməsi üçün ölkəmizin seçilməsinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Konqresin Azərbaycanda yüksək səviyyədə təşkili üçün böyük hazırlıq işlərinin görüldüyünü vurğuladı. Dövlətimizin başçısı xeyli sayda qonağın iştirak edəcəyi bu tədbirin Azərbaycan ilə daha yaxından tanış olmaq və gələcək əməkdaşlıq planlarının müəyyənləşdirilməsi baxımından önəmli olduğunu qeyd etdi.



Kley Mouri Azərbaycana gəlməkdən məmnunluğunu bildirərək, 74-cü Beynəlxalq Astronavtika Konqresinin ölkəmizdə keçirilməsinə göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi, Azərbaycanın Konqresə hazırlığını yüksək qiymətləndirdi. Konqresin əhəmiyyətinə toxunan qonaq burada 100-dən artıq ölkədən 5 mindən çox nümayəndənin iştirakını tədbirə verilən önəmin göstəricisi kimi dəyərləndirdi. Qeyd etdi ki, bu tədbir indiyədək keçirilmiş digər konqreslərlə müqayisədə iştirakçıların sayı və tərkibi baxımından eyni səviyyədədir, hətta bəzi göstəricilərə görə onlardan da üstündür. Beynəlxalq Astronavtika Federasiyasının prezidenti bildirdi ki, bu tədbir təqdim ediləcək elmi məqalələrin sayına görə də ən önəmli konqreslərdən biri olacaq. Belə ki, Konqresə 3600-dək elmi məqalə təqdim ediləcək.

Bu tədbir çərçivəsində BMT-nin Kosmik Fəza Məsələləri İdarəsinin və Beynəlxalq Astronavtika Federasiyasının birgə təşkilatçılığı ilə "Sosial və iqtisadi faydalar naminə kosmik texnologiyalar" adlı seminarın və Kosmik Nəsil Məşvərət Şurasının Kosmik Nəsil Konqresinin də keçirildiyi bildirildi. Söhbət zamanı Bakı şəhərinin və Konqres Mərkəzinin bu mötəbər beynəlxalq tədbirə yüksək səviyyədə hazırlığı xüsusi qeyd olundu.

# Qardaşlığın və tərəfdaşlığın mühüm nümunəsi

## *Şuşa şəhəri 2024-cü il üzrə ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" adına layiq görülüb*





***Azərbaycanın İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan ICESCO ilə də münasibətləri də möhkəm təmələ əsaslanır. Müstəqilliyini bərpa edən Azərbaycanın ötən əsrin 90-cı illərinin əvvəllərində erməni təcavüzünə məruz qaldığı, informasiya-təbliğat imkanları zəif və məhdud olduğu zamanda ölkəmizin haqlı mövqeyi İslam Əməkdaşlıq Təşkilatı tərəfindən dəstəklənib, təcavüzün ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynayıb.***

Tarixi keçmişi, dini. mədəni və mənəvi dəyərləri ilə islam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanın bu təşkilata üzv olması ilə beynəlxalq aləmdə respublikamızın qarşısında yeni imkanlar açılıb. Hazırda Azərbaycan təşkilatının fəal üzvlərindən biri kimi, müsəlman dünyasının üzləşdiyi cari problemlərin həllində iştirak edir, təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində qətiyyət və təşəbbüskarlıq göstərir.

Qeyd edək ki, Bakı şəhərinin 2009-cu il üçün İslamın paytaxtı, eləcə də Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ICESCO-Azərbaycan münasibətlərini bir daha aydın göstərir. Təşkilatın fəal üzvlərindən biri kimi, müsəlman dünyasının üzləşdiyi cari problemlərin həllində aktiv iştirak edən Azərbaycan təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində qətiyyət və təşəbbüskarlıq göstərir. Ölkəmizin müsəlman dünyası ilə əlaqələrinin genişlənməsi prosesi son dövrlər daha intensiv xarakter almışdır. İslam həmrəyliyinin gücləndirilməsi məqsədi ilə Azərbaycan dövləti ardıcıl olaraq siyasət yürüdür. Bildiyimiz kimi, Azərbaycan 2017-ci ildə "İslam Həmrəyliyi Oyunları"nı qəbul etdi, Ölkəmizdə Cənab İlham Əliyevin Sərəncamı ilə "İslam Həmrəyliyi İli" elan olundu. Bu, islam ölkələrinin birliyinə verilən ən böyük töhfə oldu.

Bütün bu və ya digər amillər Azərbaycanın müsəlman dünyasında birlik və həmrəyliyinin nümayişidir. Cənab Prezidentin dəfələrlə bildirdiyi kimi, İslam sülh və qardaşlıq dinidir: "Hər kəs bunu bilməlidir. Dəyərlərimizi təşviq etmək və keçmişimizi, bu günümüzü və gələcəklə bağlı planlarımızı düzgün şəkildə çatdırmaq üçün daha fəal olmalıyıq".

### UĞURLU ƏMƏKDAŞLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın oktyabrın 2-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşü bu əlaqələrin davamlığına söykənir, Görüşdə Azərbaycanda keçirilən və dünyanın müxtəlif ölkələrindən çox sayda qonağın iştirak etdiyi 74-cü Beynəlxalq Astronavtika Konqresinin önəmi vurğulanıb, ölkəmizin nüfuzlu beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkil olunduğu məkana çevrildiyi qeyd edilib.

Salim bin Məhəmməd əl-Maliki ötən həftə Qətərin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında iştirakçıların yekdil qərarı ilə Azərbaycanın Şuşa şəhərinin 2024-cü il üzrə ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" adına layiq görülməsi münasibətilə dövlətimizin başçısını təbrik edib. Azərbaycan Prezidenti bunu qardaşlığın və tərəfdaşlığın mühüm nümunəsi kimi dəyərləndirib, bu hadisənin bütün Azərbaycan xalqında xüsusi qürur hissi doğurduğunu bildirib.

Dövlətimizin başçısı Şuşada böyük bərpa və yenidənqurma işlərinin həyata keçirildiyini vurğulayaraq, burada digər obyektlərlə yanaşı, məscidlərin də artıq bərpa olunduğunu və bu prosesin davam etdirildiyini məmnunluqla diqqətə çatdırıb. Prezident İlham Əliyev bu cür genişmiqyaslı işlərin işğaldan azad edilmiş digər ərazilərimizdə də icra olunduğunu bildirib.

Söhbət zamanı Azərbaycan ilə ICESCO arasında uzun illər həyata keçirilən uğurlu əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminlik ifadə olunub. Əlbəttə ki, görülən işlər, bir daha deməyə əsas verir ki, ICESCO Azərbaycanın mövqeyinin hər zaman olduğu kimi, bu gün də dəstəkləyir.

***Zümrüd BAYRAMOVA***

# Qarabağ bölgəsində yaşayan erməni sakinlərin miqrasiya və sosial məsələlərlə bağlı müraciətləri dinlənilib







***Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin olunması və Azərbaycan dövlətinin himayəsindən istifadə etmələrinə imkan yaradılması məqsədilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli üzrə İşçi qrupa verilən müvafiq tapşırıqlar çərçivəsində Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Qarabağ iqtisadi rayonunda fəaliyyəti davam etdirirlər.***

Hər iki qurumun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, reinteqrasiya prosesinə qoşulmaq məqsədilə ilkin qeydiyyata alınmaq üçün Xankəndi şəhərində yerləşən qəbul şöbəsinə 5, bölgədə keçirilmiş səyyar qəbul zamanı isə 2 sakin könüllü şəkildə Dövlət Miqrasiya Xidmətinə müraciət edib. Həmin 7 sakinin ilkin qeydiyyata dair müraciətləri qəbul edilib və onlara müraciətlərinin icrası barədə əlavə məlumat veriləcəyi bildirilib. Müraciət edənlərin hər biri Qarabağ iqtisadi rayonunda yaşamaq və Azərbaycan Respublikası vətəndaşlığını əldə edərək Azərbaycan dövlətinin himayəsindən istifadə etmək istədiklərini bildiriblər. Bundan başqa, səyyar qəbul zamanı digər sakinlərlə hüquqi maarifləndirmə işi aparılıb, onlara reinteqrasiya prosesi barədə məlumat verilib.

Həmçinin humanitar vəziyyətlə əlaqədar cari ehtiyacların müəyyən edilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sakinlərlə ilkin sosial-psixoloji, sosial xidmətlərə, reabilitasiya xidmətlərinə dair qiymətləndirmə aparılıb, onların ehtiyacları müəyyənləşdirilib. Qiymətləndirmə zamanı sosial-psixoloji maarifləndirmə işi aparılıb, əlillik və reabilitasiya xidmətlərinə dair məsləhətlər verilib.

# 1993-cü il 3 oktyabr: Azərbaycanın milli qürur və iftixar tarixi




1993-cü il 3 oktyabr: Azərbaycanın milli qürur və iftixar tarixi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: "Müstəqilliyimizin tarixində 1993-cü il müstəsna əhəmiyyətə malikdir. O zaman, mürəkkəb durumda xalqımız çox müdrik və tarixi bir seçim etmiş, Heydər Əliyevi ölkənin Prezidenti seçmişdir. Böyük nüfuza və şöhrətə malik olan bu siyasi xadim Azərbaycanda inkişafın təməlini qoymuşdur".***

Yaşadığımız 2023-cü ildə Ulu Öndərin anadan olmasından 100, Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsindən 30 il ötür. Eyni zamanda, "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan olunmuş və bu il Ulu Öndərin 100 illik yubileyi Azərbaycanda dövlət səviyyəsində təntənəli şəkildə qeyd edilmişdir. Bütün bunlar isə dahi şəxsiyyətə böyük ehtiramın, yüksək qiymətin əyani göstəricisidir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkəmizin tarixində mühüm və əlamətdar hadisədir. Məhz bu tarixdən sonra müstəqil dövlətçiliyimizin qorunması, ölkəmizin sürətli inkişafı, xalqın rifahının yaxşılaşdırılması istiqamətində görülən işlər davamlı xarakter almış, respublikamız yerləşdiyi regionda və dünyada söz sahibinə çevrilmişdir. Bu gün əldə etdiyimiz bütün nailiyyətlərin əsası da məhz 1993-cü il oktyabr 3-dən qoyulub.

### 1993-cü ilin 3 oktyabr seçimi

Bu seçim həm də xalqın müstəqil Azərbaycanın gələcəyini müdrik rəhbərə həvalə etmək istəyinin təcəssümü idi. Daxili və xarici qüvvələrin Azərbaycanın dövlətçiliyini sarsıtmaq istiqamətində əlbir iş gördükləri bir vaxtda hakimiyyətə qayıdan görkəmli dövlət xadimi Heydər Əliyevin səyi nəticəsində ictimai-siyasi sabitliyi pozan qanunsuz silahlı dəstələr ləğv edildi, ölkəmizdə möhkəm ictimai-siyasi sabitlik yaradıldı.

1993-cü ildən tarixin qara səhifələri bağlandı və qarşımızda yeni bir səhifə açıldı. Bu səhifə Böyük Heydər Əliyevin dəst-xətti ilə yazılmağa başlandı. Elə bir səhifə ki, acılması ilə xalqın taleyini dəyişdi.

Ulu Öndərin mənəvi və siyasi varisi, daim Heydər Əliyev siyasətindən bəhrələnən və fəaliyyətini bu dahi insanın təcrübələrinə istinad etməklə quran dövlət başçısı cənab İlham Əliyev deyir: Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

Bəli, ötən 20 ilin hər saatında, hər anında Ulu Öndərimizin tapşırıq və tövsiyələrinin yerinə yetirildiyini görürük. Həm də çox yüksək səviyyədə. Bu tapşırıq və tövsiyələrin yerinə yetirilməsində bütün cəmiyyətimizin səfərbər olduğunu da görmək mümkün olub. Çünki Ulu Öndər Azərbaycan üçün nə qədər əzizdirsə, onun tapşırıq və tövsiyələrinin bu xalqın nümayəndələri tərəfindən yerinə yetirilməsi bir o qədər qürurvericidir. Biz bütün işlərdə həmişə dövlətimizin başçısının arxasında olmuşuq.

Prezident cənab İlham Əliyev Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə keçirilən tədbirdə bu barədə deyirdi: Yəni, 1993-2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu. Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar. Əsas məsələ odur ki, bu siyasət davam etdirilməli idi. Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz Ulu Öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək Heydər Əliyev siyasətinə səs verdi. Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu, Ulu Öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir. Biz iqtisadi islahatları dərinləşdirdik və son 19 ildə bu sahədə görülən işlər göz qabağındadır. Təkcə onu demək kifayətdir ki, 2003-cü ildən bu günə qədər bizim iqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bu il iqtisadiyyatımız rekord həddə çatacaq. İlin sonuna qədər gözlənilən proqnoz onu deyir ki, iqtisadiyyatımız 130 milyard manata çatacaq. Bu, rekord göstəricidir. Bizim uğurlu iqtisadi-maliyyə siyasətimiz nəticəsində xarici dövlət borcumuzu əhəmiyyətli dərəcədə aşağı sala bilmişik. Bu da həm bu gün üçün, həm gələcək nəsillər üçün böyük üstünlük təşkil edir. Bu gün ona görə ki, bizim kredit reytinqimiz yaxşılaşır. Gələcək nəsillər üçün ona görə ki, bu yük gələcək nəsillərin üzərinə düşməyəcək. Bir neçə il bundan əvvəl mənim göstərişimlə aparılan islahatlar nəticəsində bu ilin sonuna biz xarici borcumuzun ümumi daxili məhsuldakı payını 10 faizə qədər endirəcəyik. Əgər valyuta ehtiyatlarımızı götürsək, bizim valyuta ehtiyatlarımız xarici borcdan 8 dəfə çoxdur. Yəni, ancaq nadir ölkələr bu göstəricilərlə fəxr edə bilər.

Böyük Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

### Tarixi faktlara nəzər salarkən...

Azərbaycana rəhbərliyinin birinci dövründə də Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Xalqın taleyinin bu mərhələsində - azadlıq və müstəqillik duyğularının artdığı həmin illərdə Ulu Öndər həmin duyğuları alovlandırdı ki, bu da illər sonra müstəqilliyimizin bərpası ilə nəticələndi.

Hələ 1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərkən ölkənin ictimai-siyasi həyatında anarxiya və hakimiyyətdaxili intriqalar baş alıb gedirdi. Azərbaycan sosial-iqtisadi cəhətdən durğunluğun və dərin böhranın yaşandığı geridə qalmış ölkə idi.

Ulu Öndər Heydər Əliyev dövlət təhlükəsizliyi sistemində işlədiyi ilk gündən əldə etdiyi imkandan istifadə edib böyük vətənpərvərlik və uzaqgörənlik ruhunda öz doğma xalqına xidmət etmişdi. DTK-nın rəhbər strukturlarındakı fəaliyyəti dövründə bu orqanın azərbaycanlılaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmətlər göstərən Ümummilli Liderimiz respublikaya rəhbərliyə başlayan kimi qısa müddətdə idarəçilik sistemini xeyli möhkəmləmtmiş, sosial-iqtisadi tədbirlər həyata keçirmiş, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başlamışdır. Aparılan ardıcıl mübarizə nəticəsində qısa müddətdə Azərbaycanda əlverişli sosial-iqtisadi və mənəvi-siyasi şərait yaradılmışdır.

1970-1980-ci illərdə neft-qaz hasilatı sənayesinə və neftayırma zavodlarının yenidən qurulmasına 4 milyard manatdan çox vəsait qoyulmuşdur. Nəticədə, 1980-ci illərin sonunda Azərbaycan keçmiş SSRİ-də istehsal olunan neftçıxarma texnikasının üçdə iki hissəsini verir, neft maşınqayırma sahəsində ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu. 1969-1982-ci illərdə 213 iri sənaye müəssisəsi tikilmiş, sənaye məhsulu istehsalı 2,7 dəfə artaraq əvvəlki 50 ildə olduğu qədər – 101,5 milyard manatlıq məhsul istehsal edilmiş, Azərbaycan sənaye məhsulunun istehsal artımına görə SSRİ-də birinci yerə çıxmışdı. Bakı SSRİ-nin əsas sənaye mərkəzlərindən və beş böyük şəhərindən birinə çevrilmişdi. Azərbaycanın 120-dək müəssisəsində istehsal olunan 350 növ məhsul dünyanın 80 ölkəsinə satılırdı. İxracla idxal arasında 1,5-2 milyard manatlıq müsbət saldo yaranmışdı.

Meliorasiya və su təsərrüfatı kompleksinə qoyulan vəsaitin məbləği (2 milyard manat) əvvəlki 50 il ərzində bu sahəyə qoyulan vəsaitdən 2,5 dəfə çox olmuşdu. Kənd təsərrüfatının məcmu məhsulu 2,7 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmiş, məhsul artımı 11,1 milyard manata çatmışdı. Bu dövrdə 7,7 min kilometr şose, 260 kilometr dəmir yolları çəkilmişdi. 1985-ci ildə Bakı limanından dünyanın 120 limanına gəmilər səfər edir, paytaxtdan respublikanın 12, SSRİ-nin 80 şəhərinə təyyarələr uçurdu. Bakı metropoliteninin 8 yeni stansiyası istismara verilmişdi.

1969-1982-ci illərdə 18,5 milyon kvadratmetr mənzil sahəsi (376,1 min yeni mənzil) istifadəyə verilmiş, 2,2 milyondan çox adam, yəni respublikanın hər üç sakinindən biri yeni evdə məskunlaşmışdı. 1970-1982-ci illərdə iqtisadiyyatın inkişafına 23,9 milyard manat vəsait qoyulmuşdu ki, bu da əvvəlki 50 ildəkindən 1,4 dəfə çox idi. Bu zaman milli gəlirin yalnız artım hissəsi 5 milyard 370 milyon manat təşkil etmiş, onun adambaşına düşən hissəsi 2 dəfə artmış, 633 min yeni iş yeri yaradılmışdı.

Məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə çatmış, 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, 6 yeni ali məktəb yaradılmışdı. 1970-80-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində 15 mindən artıq azərbaycanlı gənc təhsil alaraq yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmışdı. 1971-ci il iyul ayının 28-də Cəmşid Naxçıvanski adına hərbi məktəb açılmış, 1970-80-ci illərdə SSRİ-nin ali hərbi məktəblərində iki mindən çox azərbaycanlı zabit hazırlanmışdı. Qısa müddətdə SSRİ müdafiə sənayesinin Azərbaycanda on bir böyük zavodu tikilmişdi.

1970-1980-ci illərdə Azərbaycanda 1155 kitabxana, 1316 klub, 44 muzey, 50 min yerlik 111 kinoteatr istifadəyə verilmişdi. 1980-ci ilin sonunda respublikada artıq ümumi kitab fondu 31,7 milyon nüsxə olan 3858 kütləvi kitabxana, 3212 klub və mədəniyyət evi, 2300 kino qurğusu var idi. 21 min yerlik xəstəxana və poliklinika istifadəyə verilmişdi.

1978-ci il Konstitusiyasında Azərbaycan dilinin ali səviyyədə rəsmi dil statusu alması, oncildlik Azərbaycan Sovet Ensiklopediyasının, üçcildlik "Müasir Azərbaycan dili" dərsliyinin işıq üzü görməsi, "Türkologiya" jurnalının nəşrə başlaması, Azərbaycan ziyalılarının imperiyanın təqiblərindən qorunması, görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimlərinə dövlət mükafatlarının, fəxri adların verilməsi, onların yubileylərinin keçirilməsi, abidələrinin qoyulması, milli ruhlu tarixi filmlərin çəkilişi, mədəniyyət kollektivlərinin və rəssamların qastrol və sərgilərinin təşkili və sair bu kimi faktlar 1970-80-ci illərdə milli-mənəvi həyatın və milli özünüdərk prosesinin sürətli dirçəlişini səciyyələndirirdi.

Ardı Səh. 7

# 1993-cü il 3 oktyabr: Azərbaycanın milli qürur və iftixar tarixi

**Əvvəli-Səh-6**

Beləliklə, Ümummilli Liderimiz Heydər Əliyevin sözləri ilə desək: “Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır”.

Bütün bu göstəricilər Ulu Öndərin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdə də daha fərqli bir şəkildə əldə olunmuşdur. Belə ki, yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan yenidən qurulmuş, Azərbaycanda Yeni Azərbaycan yaradılmışdır.

### Ümummilli Liderimizin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsi müstəqilliyimizin xilası oldu

1990-cı ilin yanvar ayında Azərbaycanın ayrı-ayrı rayonlarının, eləcə də Naxçıvanın sərhədlərində ermənilər tərəfindən münaqişələr törədilirdi. Yanvar ayının 18-də keçmiş SSRİ-nin Daxili Qoşunlarının iştirakı ilə Naxçıvanın Kərki kəndi işğal olunmuşdu. Ermənilərin Sədərək istiqamətində mütəmadi hücumları başlamışdı və vəziyyət gündən-günə gərginləşirdi. Yanvarın 20-də Bakıda törədilən faciə ilə Naxçıvanın sərhədlərində münaqişələrin başlanmasının üst-üstə düşməsi isə ermənilərin havadarlarının əvvəlcədən hazırladıqları böyük plan üzrə cərəyan edirdi. Belə ki, burada məqsəd diqqətin Bakı hadisələrinə yönəlməsi fonunda Naxçıvanın əhalisi arasında ümidsizlik yaradaraq bölgənin boşaldılması və erməni işğalı üçün şəraitin yaradılması idi. Digər tərəfdən isə Naxçıvanı ölkənin paytaxtı ilə birləşdirən yollarda da ermənilər tərəfindən münaqişə törədilir, Bakı-Naxçıvan qatarları dayandırılır, günlərlə işləmir, maşinistlətə qarşı vəhşiliklər edilirdi. Naxçıvan blokada vəziyyətinə salınırdı.

Bütün bu əməllərin arxasında kimin olduğu, kimin planı və gücü ilə həyata keçirilməsi 20 Yanvar hadisələrindən sonra Naxçıvana qayıdan və burada yaşayan Ulu Öndərə gün kimi aydın idi. Elə buna görə də Ali Məclisin 14 dekabr 1990-cı il tarixdə keçirilən sessiyasında yeni ittifaq müqaviləsinə münasibət məsələsi müzakirə olunarkən məsələ ilə bağlı çıxış edən Ulu Öndər Heydər Əliyev deyirdi: “Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır...”

Beləliklə, Ulu Öndər 1990-cı ildə Naxçıvana qayıtmasaydı, Naxçıvan indi yox idi. Qədim diyar həmin illərin qurbanı olmuş, Qarabağ kimi işğal edilmiş, naxçıvanlılar isə aclıq-səfalət içərisində məhv olmuşdu. Heydər Əliyevin Naxçıvana gəlməsi ermənilər tərəfindən sərhədlərində müharibə aparılan və blokadaya salınan diyarın xilası oldu. Və son 30 ildə Naxçıvanın inkişafı da 1990-cı illərdə Ulu Öndər tərəfindən həyata keçirilən və gələcəyə hesablanmış tədbirlərin nəticəsində reallaşmışdır. Bununla əlaqədar Prezident cənab İlham Əliyevin də dəyərli fikirlərini xatırlamaq yerinə düşər: “Naxçıvan strateji yerdə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır. Naxçıvanın uğurlu inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərmişdir və o vaxt respublikanın inkişafı üçün çox böyük işlər görülmüşdür. 1990-cı illərin əvvəllərində – Naxçıvan üçün ən ağır illərdə Ulu Öndər naxçıvanlılarla birlikdə burada çox ağır şəraitdə Naxçıvanı böyük bəlalardan qurtara bilmişdir. Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur düşmənlərimizin niyyəti, eyni zamanda, Naxçıvanı da işğal etməkdən ibarət idi. Naxçıvana qarşı onlar silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşərək düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar”.



### Müstəqilliyi qorumaq onu qazanmaqdan dəfələrlə çətindir

Azərbaycan tarixini, xüsusilə də bu tarixin hər birimizə yaxın olan mücadilə və mübarizələrlə dolu XX əsr səhifələrini vərəqləyərkən gözlərimiz qarşısında müstəqillik yolunda axıdılan qanlar, itirdik¬lərimiz canlandıqca düşünürsən ki, müstəqil olmaq heç də asan deyilmiş. Müstəqilliyi əldə etdikdən sonrakı dövrə nəzər salarkən ona uzanan əlləri, gözü ¬götürməyənlərin təxribatlarını göründə isə belə bir qənaətə gəlirsən ki, həqiqətən də, müstəqilliyi qorumaq onu qazanmaqdan dəfələrlə çətin imiş.

Məlumdur ki, 1991-ci ildə əldə etdiyimiz müstəqillikdən sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, Ümummilli Liderimiz Heydər Əliyev o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyət dövründəki kimi olacaqdı.

Bəli, böyük çətinliklə bərpa olunan müstəqilliyimiz Ulu Öndərin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə möhkəmləndirildi, əbədilik qazandı. Böyük Heydər Əliyevin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

### Zaman sübut etdi ki...

Ümummilli Liderin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və müasir dövrə uyğunlaşdıran Prezident cənab İlham Əliyev ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək erudisiyaya və idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı lider olduğu bir daha təsdiqini tapır. Cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi aləmində özünəməxsus yeri ilə seçilir. Bütün dünya dövlətləri onunla hesablaşır, ona hörmət və ehtiramla yanaşırlar. Bu gün dünyanın hər yerində söhbət Azərbaycandan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən gedir.

2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı 1 oktyabr 2003-cü il tarixli müraciət də təkcə Ulu Öndərin deyil, bütövlükdə, Azərbaycan xalqının cənab İlham Əliyevə olan böyük ümidlərinin təcəssümü kimi ortaya çıxmışdır. Ulu Öndər bu tarixi müraciəti ilə xalqa onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: “...Üzümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Zaman və tarix sübut edib ki, Ulu Öndərimiz siyasətdə heç zaman yanılmayıb. Ötən 20 ildə bunun bir daha şahidi olduq. Azərbaycanın gündən-günə inkişafı, tərəqqisi ilə şahid olduq. Sıravi vətəndaşdan tutmuş müəllimə, həkimə, mühəndisə, elm xadimlərinə, uşaqdan böyüyə hər kəsə qayğıda, ehtiramda gördük. Ölkə rəhbərinin qaçqınına, köçkününə, şəhidinə, qazisinə, ümumilikdə hər bir vətəndaşına qayğısında gördük. Ötən 20 ildə ölkənin iqtisadi gücünün ordu quruculuğuna yönəldilməsində, torpaqlarımızın bir gün işğaldan azad olunması üçün hərtərəfli tədbirlərin həyata keçirilməsində gördük. Nə üçün əsasən, ordu quruculuğu məsələsinin üzərinə gəldim? Çünki ölkəmizdə insanlar illərlə torpaq həsrəti ilə yaşayırdılar. Onları ən çox düşündürən yurd yerlərinə qovuşmaq idi. Nə qədər inkişaf etmiş bir ölkədə yaşasalar da, hərtərəfli qayğı ilə əhatə olunsalar da, qaçqınlıq və köçkünlük acısından, yurd həsrətindən özlərini narahat hiss edirdilər. Onlar öz torpaqlarını istəyirdilər. Qarabağ Azərbaycanın yarası idi. Bu yara sağalardısa, Azərbaycan tam ola bilərdi. Bütün bunlar isə dövlətimizin başçısının daim diqqətində olan məsələlər idi.

### Azərbaycanın ərazi bütövlüyü təmin edildi

“Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!”,- deyən Ulu Öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi. Bu gün müstəqil Azərbaycanımız etibarlı əllərdədir. 1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçısının rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Ulu Öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün Ulu Öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin müasir dövrdə beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq.

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü hər bir vətəndaş üçün əzizidir. O mənada ki, xalqı çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır. Xalq bir gün öz əzəli torpaqlarını da geri alacaqdı. Həmin günün Ulu Öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirilməsini təsdiqlədi. “Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss etsin”,- deyən dövlət başçısının əzmini təsdiqlədi. 2020-ci il sentyabrın 27-də başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 günlə. Azərbaycanın döyünən ürəyinə, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi anla təsdiqlədi. 10 noyabr 2020-ci il Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixinə yazdığı yeni salnamə oldu.

Cənab Prezidentimizin Ulu Öndərin “Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir” vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli məsələ olduğunu aşıladı. Bu isə ölkəmizdə hər bir gəncə nümunə gücündə olan təsirli məqamdır.

Tariximizin şanlı səhifəsini təşkil edən Qarabağ Zəfəri və ölkəmizin bugünkü inkişafı ötən 20 ilin hər anında Prezidentimizin praqmatik fəaliyyətinin nəticələridir. Ən əsası isə Azərbaycan vətəndaşının qürur yeridir. Bəli, qürur duyuruq ki, Ulu Öndərimizin siyasi yolu uğurla davam etdirilir. Qürur duyuruq ki, ötən 100 və ayrıca olaraq 30 ilin fövqündə Azərbaycan bu qədər nailiyyətlər əldə edib.

***Mətanət Məmmədova***

***30 illik münaqişə dövründə ATƏT-in Minsk qrupuna həmsədrlik edən və işğalçı ölkəyə dəstəyi ilə seçilən Fransa 44 günlük müharibə nəticəsində Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərinin azad olunmasından sonra da ermənipərəst siyasətini davam etdirməkdədir. Fransa Azərbaycanın qələbəsini həzm edə bilmir, bütün büynəlxalq təşkilatlar çərçivəsində haqqımızı əlimizdən almağa, bərpa etdiyimiz ədaləti təhrif etməyə çalışır. Paris İrəvana bütün mənalarda diqqətini artırıb. Əsasən hərbi dəstək verməklə bölgədə güc balansını Ermənistanın xeyrinə dəyişməyə can atır. Fransanın Ermənistandakı səfirliyini yeniləyir, diplomatik korpusu hərbi attaşe ilə gücləndirir, Zəngəzurda konsulluq açmaq üçün danışıqlar aparır.***

# Parisin Cənubi Qafqaz planı: YENİ MÜHARİBƏ



Fransanın müdafiə naziri Sebastyan Lekornyu Parisin şər planlarını gizlətmir. Hətta keçmiş prezident Fransua Olandın aktivləşdiyi barədə məlumatlar gəlir. İndiki prezident Makron Afrikadakı uğursuzludan, diplomatik biabırçılıqdan xilas olmaq üçün Cənubi Qafqazda hansısa yolla uğur qazanmaq və bununla da dövlətin itirilmiş nüfuzunu bərpa etməyə çalışır. Ona görə də bütün imkanlarını səfərbər edib, nə qədər ki, Rusiya Ukrayna bataqlığında çapalayır, bundan yararlanmaq, fürsəti qaçırmamaq istəyir.

Sebastyan Lekornyu qeyd edib ki, Fransa Ermənistanın müdafiə sahəsində tələbatlarını araşdırır. Bildirib ki, bizim üçün əsas məqsəd Ermənistanın ərazi bütövlüyü, suverenliyi və ölkə əhalisinin müdafiəsidir: "Biz Ermənistanda indiyədək mövzud olmayan hərbi missiya açmışıq. Bu missiya bizə gündəlik olaraq Ermənistan ordusu və hakimiyyəti ilə əlaqədə olmaq, onarın müdafiə sahəsində tələbatlarını öyrənməyə imkan verəcək".



Fransanın Ermənistana hərbi dəstək verməsi,əslində yeni müharibəyə təhrikdir. Kimsə düşünməsin ki, Paris bunu ermənilləri sevdiyi üçün edir. Yox, əsla. Fransa sadəcə müstəmləkəçi siyasətindən əl çəkmək istəmir. Sömürgəçilik bu dövlətin və xalqın iliyinə qədər işləyib. Bunsuz fransızların gələcəyini təsəvvür etmək sadəcə mümkün deyil. Bu gün Afrikadan Fransanı sadəcə qovurlar. Səfirlikləri bağlanır, hərbi kontingenti Afrikadakı mövcudluğuna son qoyur. Bunun ardınca isə Fransada iqtisadi tənəzzül başlayıb. Bu da təsadüfi deyil, çünki bu ölkənin əsas tərəqqi qaynağı Afrika qitəsindəki müstəmləkələridir. Fransız koloniyalarından gələn ucuz xammal milyardlara çevrilib Fransanın dünya ağalığına iştahlandırır. Bu gün Parisin planları, necə deyərlər, "suya düşüb", "qara qitə"dən "iti qovan kimi" qovulur.

Cənubi Qafqazda da Afrika siyasəti yürütməyə çalışan Fransa bölgədə sülhün bərqərar olmasına qarşıdır, onun maraqlarına cavab vermir. Ona görə də 44 günlük müharibədən sonra Ermənistana 4 milyard avro maliyyə yardımı ayırmağı planlayan Paris bunun üçün Avropa İttifaqının kisəsindən istifadə etməyi hədəfləyib. Fransanın Ermənistan üzərindən yürütdüyü Cənubi Qafqaz siyasəti əslində xristian təəssübkeşliyi, bir az da dərinə getsək, səlibçilik siyasətidir.

## Ermənistan: öz adımı sənə qoyum

Neçə illərdir ki, Ermənistan və onun xaricdəki uzantıları – diaspor, lobbi, adi insana oxşayan bütün ermənilər ciddi-cəhdlə dünya birliyinə sübut etməyə çalışır ki, Osmanlı dövləti dönəmində ermənilərə qarşı soyqırımı törədilib. Osmanlının süqutundan sonra onun yerində yaradılan Türkiyəni guya "fakt" qarşısında qoymağa çalışan ermənilərin niyyəti də ortadadır. Onların dərdi "tarixi ədalətsizlik", "haqsızlıq", "bəşəriyyətə qarşı vəhşilik", "ermənilərə qarşı soyqırımı" kimi söz birləşmələrindən istifadə etməklə keçmişə işıq salmaq, cinayətkarın kimliyi barədə dünya xalqlarına məlumat vermək deyil. Erməni toplumunun dərdi, türklər demişkən, paradır. Yəni, bütün çabaların sonunda Türkiyədən külli miqdarda təzminat almaq. Bu, ermənilərin xislətidir, ölüdən də, diridən də pul qazanmaq. Amma buna nail ola bilmir. Niyə? Çünki, ortada əlahəzrət fakt, sübut yoxdur.

Ermənistanın və onun yandaşlarının açmaq istəmədikləri arxivlərdə bu qondarma "soyqırımı" ilə bağlı bir kəlmə də yazılmayıb. Bütün bunlar uydurmadır. Nə yazıqlar ki, ermənisifətli, ermənixasiyyətli, ermənikibirli dövlət və təşkilatlar da yox deyil. Onların da qondarma "soyqırımı"nda öz maraqları var. Ermənilər qondarma soyqırımı iddiası ilə Türkiyəni cavabdehliyə məcbur etmək və sonradan guya qətlə yetirilmiş ermənilərə görə böyük miqdarda təzminat tələb etməyi qarşısına məqsəd qoyub. Bu gün isə Azərbaycanı etnik təmizləmədə suçlamaq fikrindədir. Yəni

1990-1994-cü illər aralığında Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərdən 750 mindən artıq azərbaycanlı öz yurdundan zorla qovuldu. Erməni vəhşilikləri, vandallıqları haqqında şahidlər bu gün də danışır. Video və foto görüntülər bu faciəni daha dəqiq izah edə, məhkəmədə sübut kimi ortaya qoyula bilər. Hələ də məcburi köçkün vətəndaşlarımız öz evunə qayıda bilmir. Çünki erməni barbarları onların evini dağıdıb, viran qoyublar. Ağdam şəhərini atom bombası atılmış Xirosima ilə müqayisə edirlər. 30 il bundan əvvəl erməni zülmündən qaçan soydaşlarımızın başına gətirilənləri etnik təmizləmə kimi qələmə verən hansı xarici dövlət və təşkilatı tanıyırsınız? Fikirləşməyin, onsuz da tapa bilməzsiniz. Siyasi dairələrin əlində "maşa"ya dönmüş bu psevdo təşkilatlar bizim həqiqətləri görməkdə çox əzab çəkirlər. Bir xristianın dırnağı qopanda mərəkə qopardan bu təşkilatlar Xocalı faciəsində həyasızcasına susdular, qulaqlarını tutdular, gözlərini yumdular. Ermənistana qarşı "güldən ağır" bir söz də deməd ilər. Bu gün Laçın yolunda toy karvanı düzəldənləri "faciə" adlandırır, Azərbaycanı dar ağacına çəkməyə həvəsli görünürlər. Amma unudurlar ki, Azərbaycan dövləti, xalqı məkrli plan hazırlayanların məqsədini çoxdan bilir. Daha bizə tələ qura bilməzsiniz, yetər. Qarabağı tərk edənlərin ümumi bir fikri var: Bizi Azərbaycan dövləti, ordusu yox, "hakimiyyət" nümayəndələri, yeni separatçı qurumun təmsilçiləri evimizdən getməyimizi istəyir. Üstəlik Paşinyan da 40 min nəfərlik yerlərin hazırlandığını əvvəlcədən anons etmişdi. Deməli, hər şey ermənilərin planı üzrə gedir. Etnik təmizləməni Ermənistanın Qarabağdakı uzantıları tərəfindən İrəvandan gələn əmrlə törədirlər.



## İrəvandan nə xəbər?

Uzun fasilədən sonra "Mülki müqavilə" fraksiyasının deputatları Paşinyanla görüşüb və üç saatdan çox müzakirə aparıblar. Maraqlıdır ki, deputatlara görüş barədə iclasdan beş dəqiqə əvvəl xəbər verilib. Paşinyan Qarabağda baş verənlərdən danışıb, dövlət qurumlarına Qarabağ ermənilərinin nəinki ən sürətli və maneəsiz köçürülməsini, həm də onların işlə təmin olunması məsələlərini təşkil etməyi tapşırıb. Amma onu da xüsusi vurğulayıb ki, onların İrəvana köçürülməsinə imkan verməsinlər. O, bildirib ki, ruslar fəaliyyətlərini davam etdirmək üçün Qarabağda müəyyən sayda erməni saxlamağa çalışacaqlar. Bu isə artıq Ermənistan üçün problem deyil, qoy ruslar Azərbaycanla problemlərini həll etsinlər. Baş nazir oktyabrın 5-də baş tutacaq görüşdən danışaraq bildirib ki, İspaniyanın Qranada şəhərində İlham Əliyevlə AB Şurasının sədri Şarl Mişelin vasitəçiliyi ilə müzakirələr aparacaq. Bildirib ki, sülh müqaviləsinin imzalanması yaxındır. Qranadada delimitasiya, bir-birinin ərazi bütövlüyünün tanınması və s məsələlər öz həllini tapacaq. Paşinyan bir sirri də ağzından qaçırıb, bəyan edib ki, Ermənistan Rusiyanı regiondan sıxışdırıb çıxarır. Proses faktiki olaraq başlayıb. N.Paşinyan bunu belə izah edib ki, Qarabağın itirilməsindən sonra 10 noyabr Bəyanatı avtomatik olaraq öz qüvvəsini itirir və bununla da Rusiya tərəfinin roluna son qoyulur.

İclasda KTMT-dən çıxmaq, Ermənistanın bəzi sərhədyanı rayonlarında Rusiya sülhməramlılarının gələcək taleyi ilə bağlı suallar qaldırılıb. Amma Paşinyan bu suallardan yayınıb. Əvəzində Roma Statutundan danışıb, son günlər bu məsələ ilə bağlı verdiyi açıqlamalara diqqət yetirməyi və çıxış edərkən bu xəttə əməl etməyi tövsiyə edib.



Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin guya "etnik təmizləmə"yə məruz qaldığı barədə bəyanatını Azərbaycan Xarici İşlər Nazirliyi qətiyyətlə pisləyib. Qeyd olunub ki, bu cür həyəcan təbili çalan rəvayət, Ermənistan baş nazirinin Azərbaycan tərəfindən erməni sakinlərə qarşı heç bir təhlükənin olmadığını söylədiyi 21 sentyabr tarixli bəyanatı ilə ziddiyyət təşkil etməklə yanaşı, o cümlədən Azərbaycanın humanitar dəstək və reinteqrasiya istiqamətində göstərdiyi səyləri pozmağa və Azərbaycan ilə Ermənistan arasında sülhün mümkün perspektivlərini sarsıtmağa hədəflənib.

Ermənistanın manipulyasiyası özünü Qarabağdan könüllü şəkildə köçənlərin sayında da göstərir. Paşinyanın mətbuat katibi Qarabağdan gedən ermənilərin yeni sayını açıqlayıb. Qarabağdan gələn ermənilərin sayının guya 70 mindən artıq olduğunu iddia edən qurum təmsilçisi bir reallığı anlamaq istəmir ki, bu qədər erməninin 4-5 gün ərzində, həm də avtomobillərin sıx olduğu dağlıq yollarla sərhəddən keçməsi sadəcə mümkün deyil. Amma ermənilər 1915-ci ildə qondarma "soyqırımı"na "məruz qalanlar"ın sayını çox göstərməklə daha çox pul qazanmaq istəyində olduqları kimi, Qarabağdan köçənlərin sayını ikiqat, üçqat göstərib eyni nəticəni əldə etmək istəyirlər. Ortada donor təşkilatları "yolmaq" niyyəti var, daha çox erməni, daha çox pul.



## "NEMESİS"lə qorxudan Ruben Vardanyan

"NEMESİS" Yunan Allahının adıdır və mənası yunanca "QİSAS" deməkdir. Amma ermənilər bu addan terror təşkilatında istifadə ediblər. 1920-ci ildə Fətəli Xan Xoyski də daxil olmaqla 7 nəfər tanınmış türk diplomatı və dövlət xadimlərini arxadan vuraraq vəhşicəsinə qətlə yetirənlər də bu terror təşkilatının üzvləri olub. Yadınızdadırsa, ötən ilin sentyabrında Rusiya vətəndaşlığından imtina edərək Qarabağa yerləşən və burada erməni terror təşkilatlarına hər cür yardım edən, onların silah-sursatla təmin edən, özünü "xeyriyyəçi" kimi təqdim edən Ruben Vardanyan dəfələrlə etdiyi çıxışlarda Azərbaycan dövlətinə qarşı NEMESİS fəaliyyətinə başlayacağını deyir, bizə hədə-qorxu gəlirdi. İndi Ruben Azərbaycan Cinayət Məcəlləsinin üç maddəsi ilə - terrorçuluğu maliyyələşdirməkdə, silahlı birləşmələrin və ya qrupların yaradılmasında iştirak etməkdə və onların fəaliyyətində iştirak etməkdə, habelə Azərbaycan sərhədini qanunsuz keçməkdə ittiham olunur.

Qarabağın dilbər guşələrindən poz verərək xarici mediaya yalanlar, boğazdan yuxarı gözəlləmələr söyləyirdi. Bu torpaqların ona və ona bənzərlərə dədələrindən qaldığı barədə cəfəngiyyat danışıb, hərdən üzünü şərq tərəfə tutub hədyanlar deyirdi. Onu "xeyriyyəçi" adlandıranlar isə Vardanyanı mələk qismində təqdim edirlər. Yəqin, ölüm mələyi. Bu gün isə Azərbaycan məhkəməsi qarşısında dayanıb göz yaşı tökür, cinayət etmədiyini deyir.

Azərbaycana qarşı dil uzadanların hamısının aqibəti belə olacaq. Müharibə cinayətkarları isə siçandan deşiyi satın alsalar da "məhşər ayağı"nda xilas ola bilməyəcəklər. Qarabağ ərazisində törədilən bütün cinayətlərin iştirakçıları məlumdur, bir qismi mərmərdən boylansa da, əksəriyyəti sağdır. Ədalətin topal olduğunu deyirlər, Tanrının da "gec eylər, güc eylər" prinsipi ilə işlədiyini bilirik. Amma bizi hər şeyi zamanın axarına buraxa bilmərik, cinayət cəzasız qalmamalıdır, oğru, qatil, yolunu azan, həddini bilməyən kimliyindən asılı olmayaraq zindanda oturmalıdır. Yoxsa başımız hələ çox müsibətlər çəkəcək.

Bu arada, Qarabağ separatçılarının keçmiş "müdafiə naziri", "general-leytenant" Levon Mnatsakanyan Qarabağdan Ermənistana gedərkən "Laçın" sərhəd-buraxılış məntəqəsində saxlanılıb. Mnatsakanyanla birlikdə qondarma rejimin "milli qəhrəmanı", "general-leytenant" Arşavir Qaramyan da saxlanılıb. Qeyd edək ki, Arşavir Qaramyan 1992-ci il fevralın 26-da Xocalıda azərbaycanlılara qarşı törədilmiş soyqırımın iştirakçılarından biridir.

## Qəbuledilməz və arzuolunan

Kremlin Bakıya münasibətdə davranış xəttini sərtləşdirməsi ilə bağlı çağırışlar səslənir. Əslində bu, münaqişə tərəflərindən birini dəstəkləmək lehinə neytral mövqedən əl çəkməyə bərabərdir. Hadisələrin bu cür inkişafı Moskva üçün qəbuledilməzdir, lakin İrəvandakı bəzi siyasi qüvvələr üçün arzuolunandır. Onlar qorxurlar ki, Qarabağın itirilməsi Ermənistanın ərazisinin kiçilməsi yolunda başlanğıc nöqtəsi ola bilər və ölkənin buna qarşı durmaq üçün kifayət qədər gücü yoxdur. Əslində, buna görə də onlar Moskvadan hazırda verə biləcəyindən daha çox şey gözləyirlər. Məyusluq Ermənistanın güc strukturlarında bəzilərini əvəzləyici axtarmağa sövq edir, onlar bunun üçün Vaşinqton və Parisə, yaxud Dehli və Tehrana üz tuturlar.

Bu fonda sentyabrın 11-20-də Ermənistan və Amerika hərbçiləri arasında "Qartal tərəfdaş 2023" birgə təlimləri keçirilib. Bunlar həm Moskva, həm də Bakı tərəfindən təxribat, hətta bir növ çağırış kimi qəbul edildi. Amerika hərbçilərini öz ərazisində yerləşdirməklə İrəvan möhlət almağa ümid etmiş ola bilərdi. İrəvanda hesab edirlər ki, Pentaqonun nümayəndələri Ermənistan torpaqlarında olarkən Azərbaycan Ordusu hücuma cəsarət etməyəcək. Belə hesablamaların səhv olduğu üzə çıxıb: Qarabağda hərbi əməliyyatlar hələ erməni-amerikan manevrləri başa çatmamış başlayıb. Bundan başqa, Azərbaycan tərəfinin bəyanatlarına görə, elə ilk gün onun döyüşçüləri düşmənin müdafiə xəttini yarıb və bu, faktiki olaraq Qarabağdakı qüvvələrini təslim olmağa məcbur edib.






Moskvaya gəlincə, indi onun İrəvanla münasibətlərdəki böhrandan çıxması son dərəcə vacibdir ki, Vaşinqton və Paris bundan öz maraqları naminə yararlanmasın. "Qərb xeyirxahlarının" təkliflərinin illüziya xarakterini göstərən mənalı dialoq olmadan etmək mümkün deyil. Rusiya üçün aktiv addımlar atmadan mövcud vəziyyəti qəbul etmək onun təkcə Ermənistanda deyil, ümumilikdə Qafqazda mövcudluğunu məhdudlaşdırmaq demək olacaq. Və məhz bu, kollektiv Qərbin ehtiyac duyduğu ssenaridir, onların bəzi liderləri Rusiyanın zəifləmiş, daha da yaxşısı, məğlub olduğunu görmək istəklərini bildirirlər. Bu, regionda sülhün bərqərar olmasına əlavə çətinliklər gətirir.

## Yenə Roma Statutu

Ermənistan Parlamentinin Dövlət və Hüquq Məsələləri Komissiyası yekdilliklə Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun ratifikasiyası haqqında qanun layihəsini qəbul edib və təsdiq üçün parlamentə göndərib. Ermənistanın beynəlxalq hüquqi məsələlər üzrə nümayəndəsi Yeqişe Kirakosyan bildirib ki, İrəvan Moskvaya Roma Statutunun hüquqi həlli üçün ikitərəfli razılaşma təklif edib. O, əmin edib ki, sənədin qəbul edilməsinin Ermənistanla Rusiya arasında münasibətlərlə heç bir əlaqəsi yoxdur.

Yada salaq ki, mart ayında Beynəlxalq Cinayət Məhkəməsinin məhkəməyə qədərki palatası Rusiya prezidenti Vladimir Putin və uşaq ombudsmanı Mariya Lvova-Belovanın həbsinə order vermişdi. Roma Statutunu ratifikasiya etmiş bütün ölkələrdən əmri icra etmək tələb olunur. İrəvan bu məsələ ilə bağlı Moskva ilə məsləhətləşmələr apardığını bildirib. Ermənistan 1999-cu ildə Roma Statutunu imzalasa da, onu ratifikasiya etməyib. 2023-cü il sentyabrın 1-də Ermənistan hökuməti BCM-nin Roma Əsasnaməsinin ratifikasiya layihəsini parlamentə göndərib. Sentyabrın 20-də Ermənistan parlamentində BCM-nin Roma Statutunun ratifikasiyası haqqında qərar layihəsinə baxılıb.

Maraqlıdır, ermənilər Putini həbs edə biləcəklərmi?

**V.VƏLİYEV**

# “Qarabağ” dastanının “Suqovuşan” boyu





30 ilədək yol gözləyən yurd yerlərimizdən biri idi Suqovuşan. Bədnam ermənilər tərəfindən adı dəyişdirilib Madagiz qoyulan Suqovuşan. Bol günəşli, oksigenli, sulu, yaşıl düzlü-çəmənli, bərəkətli torpaqlı, coğrafi üstünlüklərə malik Suqovuşan. Bu yurdun yurddaşları da səpələnmişdilər Azərbaycanın ayrı-ayrı bölgələrinə. Cənnətməkan ata-baba ocaqlarına həsrət qalmışdılar. Torpaqlarının ətrini əsən küləklərdən alırdılar. Bu küləklər gətirirdimi o ətri?.. Xeyr, gətirmirdi. 30 ilədək zaman fasiləsindən sonra biz o küləklərə doğru getməli olduq. Getdik və gedişimiz, bu yurd yerimiz yazmağa başladığımız şanlı “Qarabağ” dastanının “Suqovuşan” adlı boyu oldu. İndi o boydan danışaq bir az...

### Madagiz tarixi adına qovuşdu, Suqovuşan oldu

Oktyabrın 3-də ordumuzun Suqovuşanla bağlı qələbə xəbərini ölkəmizin Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevdən aldıq: “Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!” Dövlətimizin başçısı dərhal Madagizin tarixi adını bərpa etdi. Madagiz Suqovuşan adlandırıldı. Ali Baş Komandan 1-ci Ordu Korpusunun komandiri Hikmət Həsənovu Suqovuşanın işğaldan azad olunması münasibətilə təbrik etdi.

Onlarla Vətən oğullarının həyatlarını itirdikləri Suqovuşanda bu gün Azərbaycan bayrağı dalğalanır. Suqovuşanın işğaldan azad olması bir elin yurd haqqına qovuşmasıdırsa, həm də canlarını Vətən torpaqları uğrunda qurban verən Azərbaycan övladlarının düşməndən alınan qisasıdır.

### Suqovuşan qovuşdurdu

Xalqımız üçün su aydınlıq anlamındadır. Qovuşmaq isə həsrətlərin vüsal anıdır. Suqovuşanın azad olunmasından bir qədər sonra yenə ölkə rəhbərinin daha 7 kəndimizin işğaldan azad olunması ilə bağlı paylaşımı sentyabrın 27-dən başlayaraq genişmiqyaslı təxribat törədərək, cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutan Ermənistan silahlı qüvvələrinə Milli ordumuz tərəfindən layiqli cavab oldu. Füzuli rayonunun Qaraxanbəyli, Qarvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı və Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndlərindən, Murovdağın və Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəkliyin ardınca Suqovuşan bizi oktyabrın 3-də Talış yaşayış məntəqəsinə, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərinə, oktyabrın 4-də isə Cəbrayıl şəhərinə və rayonun bir neçə kəndinə qovuşdurdu.

### Azərbaycan tarixinin bir parçası-Suqovuşan

90-cı illərdə ermənilərin Azərbaycana qarşı başladıqları işğalçılıq siyasətinin qurbanlarından biri də Suqovuşan olub. 1991-1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunsa da, 1994-cü ilin aprel ayında Manvel Qriqoryanın başçılığı altında Ermənistan ordusunun könüllülər dəstəsi yenidən bu kəndi işğal edib. Aprel döyüşləri zamanı Qarabağda formalaşdırılan beşinci müdafiə rayonu hərbi hissəsi Qarabağ döyüşlərində bir çox təxribatçı əməliyyatlarda iştirak edib və azad edilənədək işğalçı Ermənistan ordusunun Qarabağdakı ən yaxşı hərbi hissələrindən biri hesab olunurdu. 10-cu dağatıcı diviziyanın tərkibinə daxil idi. Ehtimal edilir ki, hərbi hissə Ağdərəyə yaxın ərazilərdən Madagiz yaşayış məntəqəsi hüdudlarınadək döyüş növbətçiliyinə cəlb olunurdu. Bura aprel döyüşlərində Azərbaycan ordusunun əsas hədəflərindən biri olub. Bundan başqa erməni ordusunun 6-cı müdafiə rayonu kimi qeyd edilyi hərbi hissə də Suqovuşanda yerləşirdi.

Kənd ərazisindəki qədim abidələr onun zəngin tarixindən xəbər verir. Burada Suqovuşan su anbarı və su elektrik stansiyası var. Kənddə 2014-cü ildə balıqartırma zavodu tikilib. Aprel döyüşləri zamanı elektrik stansiyası və balıqartırma zavoduna ziyan dəysə də, onlar sonradan yenidən bərpa ediliblər.





### Yeri gəlmişkən: qara kürü istehsalı

Yazı ilə bağlı araşdırma apararkən Svetlana Xaçaturyanın “Madagizi ziyarət etmək və balıqçılıq təsərrüfatının taleyi ilə maraqlanmamaq işgüzar səfərinizin missiyasını yerinə yetirməmək deməkdir” adlı məqaləsi ilə də rastlaşdım. Məqalədə qeyd olunur:

“Artsax qara kürü ixrac edən bir ölkəyə çevriləcək. İldə 15-20 ton qara kürü, 1200-1500 ton balıq istehsal ediləcəkdir... Ancaq Aprel müharibəsi başladı, bunun fonunda ehtiraslar tədricən azaldı: xarici investorların vəsaitlərinin küləyə atıldığını, proqramın uğursuz olduğunu və kürü istehsal olunmayacağını artıq bir pıçıltı ilə danışırdılar. Biz bu yaxınlarda Madagiz balıqçılıq təsərrüfatının direktoru vəzifəsini icra edən Arena Ulubabyanla görüşdük. O, özünü təqdim edəndə dedi: əvvəlcə gəlin balıqları görək. İnzibati binanın yanında yerləşən balıqçılıq, ümumi bir dam altında çoxsaylı hovuz kompleksidir. Onun sözlərinə görə, ümumilikdə 306 hovuz var və hamısında balıq yaşayır. Ulubabyan bunların “Sibir nərəkəsi” və “Rus nərəsi” növlərinin balıqları olduğunu söylədi. Bunlar qara kürü üçün ən yaxşı balıq növləridir. Balığın Madagizə necə gətirildiyini və onların “səyahət” marşrutunun belə olduğunu izah etdi: mayalanmış yumurtalar əvvəlcə Almaniyadan və Rusiyadan Ermənistana - suları balıq yetişdirmək üçün yararlı olan Ararat bölgəsinə, oradan da Artsax və xüsusi olaraq – Madagizə gətirilir. Zavodun Artsaxın başqa bir qəsəbəsində deyil, nə üçün Madagizdə qurulduğunu soruşduqda, A.Ulubabyan cavab verdi ki, balıq yetişdirmək və qara kürü istehsalı üçün ən uyğun şərtlər məhz Madagizdədir. Kürünün keyfiyyətinə əsasən iki amil təsir edir: oksigenlə zəngin təmiz su və Tərtər çayının ən böyük qolunun suyuna tam uyğun gələn müvafiq temperatur. İl ərzində sabit temperaturu 6-8 dərəcə olan təmiz, oksigenlə zəngin sular keyfiyyətli kürü əldə etmək üçün faydalıdır Madagiz balıqçılıq təsərrüfatının direktoru vəzifəsini icra edən şəxs də əsas investorların xaricdən gələn iş adamları olduğunu söylədi. Bu yaxınlarda Artsax məhsullarının dadına baxan və keyfiyyəti və ləzzətindən məmnun qalan qara kürü satışında dünyaca məşhur mütəxəssislər gəldi, nəticədə kürünün ixracı ilə bağlı razılaşmalar əldə edildi. Ulubabyanın sözlərinə görə, məhsulların ilk partiyası 2018-ci ilin sonunda istehsal olunacaq və müəssisə 2022-23-cü illərdə tam gücü ilə fəaliyyətə başlayacaq və dünya bazarlarında “Artsaxda istehsal olunur” etiketli qara kürü və balıq görünəcək”.

### Və suya düşən xəyallar...

Xalqımızın belə bir gözəl deyimi var: “Qonşuya ümid edən şamsız qalar”. Hələ o da ola başqasının torpağında “qonşuluqdakına” ümid etmək. Bəs qonşunun torpağında qara kürü biznesi quran qonşularımız görəsən, bu Azərbaycan deyimini heç düşünməmişdilərmi? Təəssüf ki, düşünməyiblər. 2022-2023-cü ilə dünya bazarına çıxarmaq istədikləri qara kürünün istehsalına zəngin təbiəti ilə tam cavab verən Madagiz adlandırdıqları ərazimizdə 2020-ci ilin 3 oktyabrında Azərbaycan bayrağı yenidən dalğalandı və ərazi tarixi adına qovuşdu-Suqovuşana. Ağılsız ermənilərin xam xəyalları isə elə Suqovuşanın çox bəyənib, təqdir etdikləri sularına qovuşdu. Onlara üz tutub demək istəyirəm ki, əmin olsunlar, onlar bu qara kürüdən yeyə biləcəklər. Bu məhsulu planlaşdırdıqları illərdə-2022-2023-cü illərdə “Qarabağda istehsal olunur” etiketi ilə dünya bazarından əldə edə bilərlər.

Bəli, qonşuya ümid edib, xarici ölkələrə yalvarıb-yaxarıb, investor tapıb onun torpağına yatırım yatıranda son aqibəti əvvəldən düşünməmək çox ağılsızlıqdır. Eynilə dilənçiliklə əldə etdikləri milyonlarla manat dəyərində olan silahları döyüş meydanında qoyub qaçdıqları kimi...

### Suqovuşan Qarabağın açarıdır

Azərbaycanın “Brest” qalası hesab edilən Suqovuşanın işğaldan azad olunması ilə Murov, Kəlbəcər, Tərtər yolu tamamilə kəsilir və Ağdamın azadlığına yol açılır. Murov dağ silsiləsinin cənub yamacı ilə Sərsəng gölünə yol buradan keçir. Bu gün öz taleyini Prezidentinə, Ali Baş Komandana ümid edən Azərbaycan xalqı əmindir ki, arxasında olduğu dövlət rəhbərinin düşünülmüş və ardıcıl şəkildə həyata keçirdiyi tədbirlər nəticəsində, Milli Ordumuzun qəhrəman əsgər və zabitlərinin səyi ilə yaxın zamanda torpaqlarımız son qarışınadək işğaldan azad ediləcək. Azərbaycan bayrağı bütün əzəli torpaqlarımızda dalğalanacaqdır. Suqovuşan 30 illik həsrətliləri Qarabağa qovuşduracaqdır. Saf, təmiz suları ilə torpaqlarımızdan erməni çirkabını yuyub aparacaqdır.

Bu gün Azərbaycan “Qarabağ” dastanını yazır. Bu qəhrəmanlıq dastanının fonunda onun bir boyu olan “Suqovuşan” gələcək nəsillərə ərmağan edə biləcəyimiz ən dəyərli vətənpərvərlik hissi, qürur yerimizdir. Hələ “Qarabağ” dastanına irəlidə neçə-neçə belə qəhrəmanlıq boyları da yazılacaqdır...

***Mətanət Məmmədova***

***P.S.** 2020-ci ilin 44 günlük Vətən Müharibəsində torpaqlarımız azad olduqca qələmə aldığım boylar sonda “Qarabağ dastanı” adlı kitabımda cəmləndi. Budur, onlardan birinci yazı-Suqovuşan haqqındadır. Düz 30 il torpaqlarımızın işğalından yazdıq, yazdıqca da yandıq. Artıq üç ildir ki, torpaqlarımızın azadlığından yazırıq, yazdıqca da yaralarımız sağalır. Odur ki, 2020-ci ilin 3 oktyabrında yazdığım yazını elə olduğu kimi yenidən dərcə verirəm...*

# Hər gün Qələbəyə doğru!



## PREZİDENT İLHAM ƏLİYEV: "Biz elə ilk gündə düşmənin müdafiə xəttini yarmağa nail olduq"

***Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən Zəfər tariximiz 44 günlük qətiyyətli yolun sonunda yazıldı. Azərbaycan ordusu ilk gündən düşmənin müdafiə xəttini yarmağa müvəffəq oldu və yalnız qələbə xəbərləri aldıq. Azərbaycan xalqı, ordumuz Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və Vətən müharibəsində öz gücünü nümayiş etdirdi. İkinci Qarabağ müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun düşmənə verdiyi dərs tarix boyu yaddan çıxmayacaq.***

27 Sentyabr 2020-ci il tarixində başlanan müharibə 44 gün ərzində Qələbə ilə sona çatdı. Azərbaycanın 30 ilə yaxın bir zamanda işğal altında olan torpaqları işğaldan azad olundu. Vətən oğulları qanları ilə torpaqlarımızı işğaldan azad etdilər. Hər gün bizi Qələbəyə doğru aparırdı. "Hərbi əməliyyatların birinci gününün sonunda biz Kəlbəcər rayonunda, Murovdağda və Ağdərə istiqamətində strateji əhəmiyyətli yüksəklikləri, həmçinin 6 kəndi – Füzuli rayonunda 4 və Cəbrayıl rayonunda 2 kəndi azad etdik. Biz elə ilk gündə düşmənin müdafiə xəttini yarmağa nail olduq və bundan sonra bütün 44 gün ərzində yalnız irəli getdik". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirmişdi.

### "BİZİM İŞİMİZ HAQQ İŞİDİR"

2020-ci ilin sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində qeyd edirdi ki, bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir: "Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində dövlət başçımız yorulmadan səylər göstərmiş, danışıqlar aparmışdır. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olması istiqamətində, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atmışdı. Əlbəttə ki, ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirildi. Həmin döyüşlərdə ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin gücü öz sözünü demiş oldu. Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağı ordumuzun hansı gücə sahib olduğunu bir daha göstərdi. Əlbəttə ki, Tovuz döyüşləri böyük qələbənin başlanğıcı oldu. "Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir"- deyə Azərbaycan Prezidenti çıxışlarının birində bildirmişdir.

### "ƏLİNDƏ SİLAH DÜŞMƏNİ QOVAN DA ƏSGƏRDİR, DÜŞMƏNİ MƏHV EDƏN DƏ ƏSGƏRDİR"

Müharibənin ilk günü Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri işğaldan azad olundu. Müharibənin ilk günü. Bu artıq Ali Baş Komandan, Cənab İlham Əliyevin müdrik siyasətinin nəticəsi idi. Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər işğaldan azad olundu.

Dünyanı öz qüdrəti ilə təəccübləndirən Azərbaycan şanlı qəhrəmanlıq salnaməsi yazaraq, qısa bir zamanda düşmən üzərində tarixi zəfər çaldı. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində Müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndini, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini işğaldan azad etdi. Eləcə də Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklərimiz erməni işğalçılarından azad olundu.

Azərbaycan xalqının torpaq uğurunda savaşı və sonda qələbə tarixinin yazılması ilə nəticələnən 44 günlük müharibə Azərbaycan ordusunun Vətən Müharibəsindəki hünərindən, qəhrəmanlığından qaynaqlanırdı. Sanki hadisələr xronoloji ardıcıllıqla davam edirdi. Beləliklə, Zəfər tariximiz yazıldı. Bu sevincləri yaşadan Azərbaycan əsgəri qəhrəmanlıq simvoluna çevrildi. Döyüşdən qorxub qaçan erməni Azərbaycan əsgəri qarşısında məğlub olduğunu dünyaya göstərdi. "Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik", - deyə bildirən Cənab Prezident torpaqlarımızı ancaq Azərbaycan əsgərinin, Azərbaycan zabitinin azad etdiyini qeyd edirdi: "Sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir". Əlbəttə ki, Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi bu qələbənin qazanılmasında mühüm rol oynadı.

### "ERMƏNİSTAN ƏRAZİSİNDƏ AZƏRBAYCAN SİLAHLI BİRLƏŞMƏLƏRİNİN HEÇ BİR MƏQSƏDİ, HƏDƏFİ YOXDUR"

2020-ci ilin sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında dövlət başçısı "Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik", - deyərək onu da bildirmişdi ki, Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı keçirir: "Deyə bilərəm ki, əməliyyat uğurla keçirilir, uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulmuşdur. Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib. Bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edirəm!".

Xalqımız demək olar ki, hər gün xoş müjdəli xəbər alırdı. Bu Azərbaycan xalqının 30 ilə yaxın həsrətlə gözlədiyi Qələbə soraqlı tarixi günlərin ilk müjdəsinə çevrildi.Bu gün Azərbaycan xalqı böyük qələbədən sonra işğaldan azad olunmuş torpaqlara BÖYÜK QAYIDIŞA başlayıb: "Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır.Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir ", - deyə Cənab Prezident bildirib.

***Zümrüd BAYRAMOVA***

## Yasamalda şəhid məzarları ziyarət olunub



44 günlük Vətən müharibəsi şəhidlərindən olan - kapitan Həmidağa Hüseynzadə Bağı oğlunun anım günü və əsgər Rəşad Mikayılzadə İlham oğlunun isə doğum günü münasibəti ilə məzarları ziyarət olunub. Məzar ziyarətlərində YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Yasamal rayon İcra Hakimiyyətinin Başçısı Elşad Həsənov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yasamal rayon İdarəsinin rəisi Ramin Şükürov, YAP Yasamal rayonu və Yasamal Rayon İcra Hakimiyyətinin əməkdaşları, şəhid ailə üzvləri, qazilər, şəhidlərin döyüş yoldaşları və rayon ictimaiyyəti iştirak edib.



Şəhid hərbi qulluqçuların Yasamal rayonunda yerləşən 2-ci Fəxri xiyabandakı məzarları ziyarət edilib, ruhlarına dualar oxunub. Şəhidlərin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə və Birinci vitse prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, Həmidağa Hüseynzadə müharibədə göstərdiyi rəşadətə görə, "Qarabağ" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları, Rəşad Mikayılzadə isə "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif ediliblər.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

# Makronun Korsika yalanı



***Prezident Emmanuel Makron Korsikaya iki günlük səfər edib. Yerli məclisdə çıxışında, korsikalılara ölkə konstitusiyasında xüsusi qeyd ediləcəyini deyib və əlavə edib ki, yerli dilin hüquqlarını təminat edəcək. Makron bunu Fransanın Korsikaya həmişə inkar etdiyi muxtariyyətə doğru irəliləyiş adlandırıb. Amma hər kəsi belə bir sual maraqlandırır, adanın və materikin siyasi qüvvələrinin prezidentin təşəbbüsünə reaksiyası necə olacaq.***






ANALİZ

Sentyabrın 28-də 2015-ci ildən bəri millətçi çoxluğa sahib olan Korsika Assambleyasında çıxış edən Emmanuel Makron "Gəlin respublikada Korsikanın muxtariyyətini qurmaq üçün cəsarət göstərək" deyib. Lakin Makron bunun dövlətə qarşı muxtariyyət və ya dövlətsiz muxtariyyət olacağına aydınlıq gətirə bilməyib.

Qeyd edək ki, bu, Makronun Korsikaya dördüncü və prezident kimi ikinci müddətində onun ən vacib səfəridir. Aralıq dənizində, Fransa sahillərinə nisbətən İtaliyaya iki dəfə yaxın olan bir adanın sakinləri fransızlardan xeyli fərqlənirlər, italiyalılara daha yaxındırlar. 1768-ci ildə Genuya Korsikanı Fransaya verəndən sonra ilk dəfə olaraq Fransa dövlətinin başçısı adaya muxtariyyət verilməsini təklif edib. Bundan əvvəl yalnız Korsika millətçiləri belə bir ehtimaldan danışırdılar. Paris isə zaman-zaman onların azadlıq istəklərini boğmaq üçün əlindən gələni edib. Gərginlik bu gün də davam edir. Korsikallarla fransızlar arasında gərginlik bütün sferalarda özünü göstərir. Filmlərdə "Mən fransız deyiləm, mən korsikalıyam" ifadələri tez-tez eşidilir, muxtariyyət və müstəqillik tərəfdarları adada açıq və gizli fəaliyyət göstərirlər. Korsika Milli Azadlıq Cəbhəsi (FLNC) bu gün də Fransaya qarşı üsyana hazırdır.

FLNC 2014-cü ildə silahlı mübarizədən əl çəkib və onu siyasətlə əvəzləyib. 2015-ci ildən yerli millətçilər adada seçkilərdə qalib gəliblər. Fransadan olan siyasi partiyalar burada uğur qazana bilməyiblər. 2018-ci ildən bəri ada Fransanın əksər bölgələrindən daha geniş hüquqlara malik "Korsikanın ərazi kollektivi" kimi xüsusi status qazanıb, lakin tələblər getdikcə artıb. 2022-ci ilin mart ayında 61 yaşlı korsikalı millətçi İvan Kolonna Fransada Arles şəhərindəki həbsxanada öldürülüb. O, adada mərkəzi hökumətin nümayəndəsi, prefekt Klod Erinnaka qarşı terror aktına görə ömürlük həbs cəzasını çəkirdi. Zindanda cinayətkardan çox qəhrəman sayılan Kolonnanın qətli daha çox həbsxana işçilərinin səhlənkarlığı ucbatından fransız məhbus tərəfindən törədilib.

Bir həmyerlinin ölümü Korsikanı sarsıdıb. Korte, Ajaccio, Bastia və Calvidə iğtişaşlar baş verib və polislə şiddətli toqquşmalara çevrilib. Daha sonra Daxili İşlər Naziri Gerald Darmanin iğtişaşları təcili olaraq yatırmağa çalışıb, əvvəlcə Korsikanın geniş muxtariyyət əldə edə biləcəyindən danışıb. O vaxtdan bəri prezidentin hazırkı səfərini hazırlayan Daxili İşlər Nazirliyinin rəhbərinin adaya çoxsaylı səfərləri zamanı bu ehtimalla bağlı danışıqlar aparılıb.

Təbii ki, səfər hökumətlərarası danışıqlar, xüsusən də millətçilərə təslim olmaq kimi qələmə verilməyib. Emmanuel Makron Korsikaya 1943-cü ildə italyan faşistləri və alman nasistlərindən azad edilməsinin 80 illiyini qeyd etmək üçün gəlib. Korsikalıların fəal müqaviməti sayəsində ada Avropada ilk azad Fransız ərazisi olub. Amma səfərin əsl mənası hər kəsə aydındır. İyulun əvvəlində Paris Korsika Assambleyası tərəfindən regionun təklif və tələbləri ilə qəbul edilmiş sənəd alıb. Fransız siyasətçiləri onların bəzilərini qəbul etməyə hazırdırlar, digərlərinin isə konstitusiyaya uyğunluğu sual altındadır.

Birinci tələb konstitusiyada Korsika xalqının mədəni və milli xüsusiyyətləri ilə qeyd olunmasıdır. Bu, çox güman ki, həyata keçiriləcək və bu, regionun ciddi mərkəzləşdirilmiş dövlətdə xüsusi rolunu möhkəmləndirəcək. Bununla belə, yerli siyasətçilər Korsika dilinin dövlət dili kimi konstitusiya tərəfindən tanınmasını da tələb edirlər. Prezident statusunu yüksəltməyə razıdır. "Bu misilsiz konstitusiya tanınması sayəsində ümid edirəm ki, korsika dili... hər bir korsikalının həyatının ürəyinə çevrilə bilər", - deyə dövlət başçısı Ajacciodakı parlament tribunasından çıxışında təsdiqləyib. Korsika dilinə həm təhsildə, həm də ictimai həyatda daha çox yer ayrılır.

Korsikada korsika dilinin istifadəsi təbii olaraq heç bir etiraza səbəb olmur və praktikada şübhəsiz ki, təkcə mədəni deyil, həm də inzibati tanınma istiqamətində addımlar atılacaqdır. Amma hər kəs regional dili konstitusiyaya daxil etməyə hazır deyil. Fransa vahid, strukturlaşdırılmış və qorunan fransız dili ətrafında qurulub. Korsika dövlət statusu alsa, Breton, Oksitan və ya kim bilir ərəb dili məsələsi ortaya çıxacaq.

Digər bir məsələ isə "Korsika sakinləri", yerli əhali və ya adada 5, hətta 10 il fasiləsiz yaşadıqdan sonra bu statusu əldə edənlər üçün xüsusi statusun tələb olunmasıdır. Yerli siyasətçilərin dediyi kimi, "sakinlər" evlərə və torpağa sahib olmaqda imtiyazlara malik olacaqlar ki, Korsika daşınmaz əmlakında qiymətləri adalıların özləri üçün əlçatmaz həddə çatdıran spekulyasiyalar dayandırılacaq.

Millətçilər də işə qəbulda korsikalılara üstünlük verilməsini müdafiə edirlər. Qanunvericilər çətin ki, bununla razılaşmasınlar, çünki bu, ən azı "azadlıq, bərabərlik, qardaşlıq" simvolik triadasından bərabərliyi təhlükə altına qoya bilər. Bir çox şəhər və kommunaların öz açıqlanmayan imtiyazları var, lakin heç bir yerdə qanun kimi yazılmayıb.

Ümumiyyətlə, millətçilər Korsika üçün Yeni Kaledoniyanın "xarici ərazisi"nin sahib olduğu xüsusi imtiyazlı mövqeyə nail olmaq istəyirlər. Korsikalılar əraziyə tam sərəncam vermək hüququnu alana qədər onlar tədricən mövcud hüquqlara yeni hüquqlar əlavə etmək niyyətindədirlər. Onlar yalnız müdafiə, ədalət, daxili təhlükəsizlik məsələlərini və mərkəzi hökumətin tabeliyində vahid valyutanı saxlamağa hazırdırlar.

Prezident Makron artıq aydın şəkildə bəyan etdi ki, sənədin bütün bəndləri ona uyğun gəlmir və Korsikanın siyasi qüvvələrinə "altı ay" təklif edib ki, əvvəlcə öz aralarında, sonra isə mərkəzi hökumətlə "konstitusiya və üzvi" razılaşma əldə etsinlər. "Adanın statusunu dəyişdirmək üçün mətn" adlanan sənəd daha sonra Parisdə təqdim olunacaq.

İstənilən halda belə mühüm dəyişikliklər Korsika Assambleyasından fərqli olaraq nə Korsika millətçilərinin, nə də prezident blokunun çoxluğa malik olmadığı Fransa parlamentində müzakirə olunacaq. Adanın yeni statusu əvvəlcədən hər kəsin xoşuna gəlmir. Skeptiklər, məsələn, Senatın Respublikaçılar qrupunun prezidenti Bruno Retaillot, artıq eyham vururlar ki, dotasiya olunan bölgə maksimum imtiyazları əlindən alaraq Parisə sosial yardımı öz əlində saxlamağa imkan verəcək.

**V.SALAH**

# Sıra mədəniyyəti, yoxsa mədəniyyətsizliyi?



***Yəqin ki, hər birimiz heç olmasa ömrümüzdə bircə dəfə də olsa sıra mədəniyyətsizliyi ilə rastlaşmışıq. Bəli, sıra mədəniyyəti yox, sıra mədəniyyətsizliyi! Belə ki, bu hallar marketlərdə kassa növbəsində, avtobusa, metroya daxil olarkən, həkim qəbulunda və s. yaşanır. Bəs, insanlar niyə belə edir? Məgər, normal sırada dayanıb, biraz səbrli olub mədəni şəkildə öz növbəni gözləmək çox çətindir?!***



### SİA mövzu ilə bağlı araşdırma aparıb.

Mövzuya başlamazdan öncə qeyd edim ki, təbii ki müəyyən bir sıralar var ki, orada sizdən çox daha ağır və çətin vəziyyətdə olanlara insanlıq xatirinə növbənizi verə bilərsiniz. Əlbəttə, bu heçkimin borcu deyil. Amma insanlıq o qədər də ölməyib. Lakin hər adi məsələ üçün yaxınlaşıb “Olar sıranızı mənə verəsiniz”, yaxud “İki dəqiqəlik işim var” deyib insanları aldadanlar belə yaxşılığa layiq deyil. Əgər biz bu tip insanlara sıramızı veririksə, bu zaman öz sıramızda dayanmamalıyıq. Bu halda bizim yerimiz ən sonuncu sıradır. Yəni, hər dəfə sıramızı kiminləsə bölüşürüksə, bu zaman bizim yerimiz olduğumuz sıra deyil, ən axrıncıdır.

İlk olaraq kassa növbəsindəki sıraya nəzər yetirək. Bir sıra böyük marketlərdə kassada ciddi sıra növbəsi problemi yaşanır. Məsələn, bir müştəri böyük bir səbət dolusu mal alıb, digəri də cəmi bir ədəd çörək. Bir ədəd çörək alan şəxs başlayır o bir səbət mal alanlardan xahiş etməyə ki, “Bəs mənim əlimdə bircə ədəd çörək var, qoyun tez vurdurum kassaya gedim”. Bu nə dərəcədə düzgündür? O anlamır ki, bu hərəkəti ilə tək xahiş etdiyi müştərinin yox, geridə qalan 10-15 nəfərin də sırasına girir və zamanından çalır. Nolsun ki, növbədə olan bir nəfərdən icazə alıb? Bəs geridə qalanlar? Bu adam ya sırada gözləyən hər kəsin önünə keçmək üçün bircə-bircə razılığını almalı, ya da ağıllı-başlı sırasını gözləməlidir. Əgər evində yağın daşmırsa, yeməyin yanmırsa, körpə uşağın ağlamırsa, yəni hər hansı fövqəladə vəziyyət baş verməyibsə, zəhmət olmasa sıranı gözlə. Hər şeydən öncə bu çox qeyri-etik bir hərəkətdir.



İndi avtobus məsələsinə baxaq. İşdən çıxırsan və məlumdur ki, saat 6-dan tıxacın ən pik vaxtıdır. Nəysə, avtobus dayanacağa yaxınlaşır. Başlayır hamı bir-birini əzməyə və sıra gözləmədən avtobusa daxil olmağa. Hələ bu vəziyyətdə arada bir cavanlara da söz vururlar ki, “Adama yol vermirlər”, “Böyük-kiçik qalmayıb”. Əvvəla, əgər o ilk sırada o cavan dayanıbsa, arxasındakı 100 nəfəri əzib böyüyə yol verə bilməz. İkincisi də, axı burada böyük xaos yaradacaq nə var? Avtobusdur da əvvəl-axır hamı minəcək və evinə yollanacaq. Görünür, bir çox insanlarda hələ də sıra mədəniyyəti formalaşmayıb.

Metroda da vəziyyət belədir. Qapılar açılır və qatara minən düşənə icazə vermir. Bir icazə verin düşən düşüb getsin, sonra siz qatara daxil olun. Axı bir-birini itələyib əzişdirəndə nə olur? Yaxşı, bilirik ki metroda qapıların bağlanması 20-30 saniyə çəkir və hamı tələsir ki, qapı bağlanar qatara minə bilməz, yaxud qapının arasında qalıb zədələnər. Yaxud sırada dayanan elə biri olur ki, qatara yellənə-yellənə daxil olur və arxada qalanlara növbə çatana qədər qapı bağlanır. Yaxud düşənlər ləng-ləng düşür. Biri telefona baxır düşür, biri rəfiqəsi-dostu ilə öz aləmində söhbət edə-edə, biri də sevgilisi-dostu ilə qol-qola, əl-ələ düşür. Nəticədə də qapılar bağlanır camaat da qalır qapının arasında, yaxud çölündə.

Həkim qəbulunda da ciddi sıra mədəniyyəti problemi yaşanır. Bu ən çox icbari tibbi sığorta olan xəstəxanalarda baş verir. Sıra gözləmək üçün sıradakıları aldadıb növbə nömrəsini səhv deyən kim, “İki dəqiqəlik həkimdən söz soruşub çıxıram”, “Mən hamiləyəm”, “Özümü yaxşı hiss etmirəm” deyən kim. Hələ bu səbəbdən yaranan dava-dalaş və səs-küyü demirəm. Düzdür, mədəniyyətsiz insan hər yerdə belədir. Bu özəl və dövlət xəstəxanasından asılı deyil. Amma mən daha çox bu halları icbari tibbi sığorta olan yerlərdə görmüşəm. Çünki insanlar da elə ən çox icbari tibbi sığorta olan yerlərə üz tutur.

### Bəs, dünyada bu məsələdə vəziyyət necədir?

29 sentyabr 2023-cü ildə tarixində Türkiyədə Tahsin Ünal məhəlləsində fındıq dükanında K.B, H.A, M.Y. və M.A. arasında növbə gözləmək üstündə mübahisə düşüb. Mağazadan çıxandan sonra Atatürk parkında görüşən tərəflər arasında dava olub. Davada K.B., H.A. və M.Y.-ya bıçaqla bədənlərinin müxtəlif nahiyələrindən xəsarətlər yetiriblər. Xəbər verildikdən sonra hadisə yerinə polis və həkim briqadası göndərilib.

### Növbə gözləmək bacarığı neçə yaşda və necə əldə edilir?

Övladınızla bu barədə azyaşlı dönəmindən danışdığınız zaman ona ünsiyyətin qarşılıqlı bir proses olduğunu hiss etdirə bilərsiniz. Bunun üçün ona tələffüz etmələri, onu dinləməli və tələffüz bitdikdən sonra danışmağa davam etməlisiniz. Beləliklə, körpə daxili proses vasitəsilə ünsiyyətin ardıcıl bir hərəkət olduğunu və onun ardıcıllıqla danışılması lazım olduğunu öyrənə biləcək. Bu, onu gələcək həyatına hazırlayacaq.



Gündəlik həyatın hər anında növbə gözlədiyimizi nəzərə alsaq, uşağınızla bazara və ya parka getdiyiniz zaman növbə gözləməyin zəruriliyini qısa və sadə cümlələrlə izah edin. Məsələn, oyun vasitəsilə növbə gözləmək davranışına diqqət çəkmək olar. Belə ki, növbə gözləmə oyunları bu məsələdə sizə çox kömək olacaq.

### Səbirsizlik və qəzəb hisslərini idarə etmək üçün nə etmək olar?

Arzuolunmaz situasiyalarda tez-tez səbirsizlik və qəzəb hissləri yaranır və insanlar bu emosiyaları düzgün idarə edə bilmədikdə münaqişələr baş verir. Uşaqlar növbə gözləyərkən bəzən qəzəblənir, vəziyyətdən şikayətlənirlər. Belə hallarda emosiyalar haqqında danışmaq faydalı ola bilər. Ondan növbədə gözləməyin nə hiss etdirdiyini, bu hissin necə olduğunu və bu hissin daha yaxşı bir hisslə necə əvəz oluna biləcəyini təsvir etməsi istənilə bilər.

Uşaqlar sözləri deyil, böyüklərin hərəkətlərini müşahidə edərək öyrənirlər. Bu səbəbdən böyüklər də növbə gözləyərkən öz rəftar və davranışlarına fikir verməlidirlər. Unutmayın ki, siz daim yol hərəkətindən şikayət edən valideynsinizsə, övladınız da o gərgin və stresli məqamdan təsirlənəcək, narahat və əsəbi olacaq.

### Valideynlər üçün tövsiyələr

- Uşaqlar da böyüklər kimi vərdişləri sevirlər. Əgər uşaq iş rejimi pozulduğunda əsəbiləşirsə, qaydalarının pozulacağı bilinərsə, ona əvvəlcədən məlumat vermək faydalı ola bilər.
- Uşaq qəzəbləndiyi zaman onu sakitləşdirməyə və ya inandırmağa çalışmaq əvəzinə, emosiyalarını rahat buraxmaq imkanı verə bilərsiniz.
- Nəfəs alma məşqləri edilə bilər.
-Qəzəb balonu məşqi edilə bilər. Qəzəbləndiyiniz zaman xəyali bir şar təsəvvür etməyi, onu üfürməyi, bütün qəzəbinizi bu şarın içinə qoyub onu partlatmağı simulyasiya edə bilərsiniz.

Bütün bu mədəniyyətsizliyə susmayıb səsini çıxaranda da ya olursan həyasız, ya deyirlər “Vay, bunu alanın halına”, gah deyirlər “Sabah bu qapılara düşəcək”, ya da olursan pis adam.

### Bəs, insanlar bu barədə nə düşünür?

Bir xanım deyir ki, “Mən sırada daim öz yerimi güdürəm. Biri yerimə keçsə, əsla susmuram və iradımı bildirirəm. Çünki o insanın zamanı yoxdursa, mənim də yoxdur. Həs kəs öz sırasını gözləməlidir. Hər kəsin fərqli işi olsa da, dayanıb sırasını gözləyir. Biraz anlayış və vicdanla hərəkət etmək lazımdır”.

Daha bir xanım deyir ki, “Mən başqasının növbəsinə əsla keçmirəm. Öz növbəmə keçəni də bağışlamıram. Çünki susduqca sanki belə də olmalıdır kimi davranırlar”. Bir bəy isə bildirir ki, “O gün həkimdə bir kişi özünü xəstəliyə vurub növbədə önə keçib. Çıxışda isə anam onu sap-sağlam görüb. Kişinin 50 yaşı var idi. Bu yaşda hiyləgərliyə bax, sən”.

Məsələn, hava limanında uçuşa gecikən birinə sıradakılar yol verir. Bu normaldır. Çünki adam uçuşa gecikir və çox vacibdir. Bu bir ədəd siqaret alıb kassa sırasında gözləmək demək deyil. Amma market sırasında sıraya keçənləri və həkim sırasında fırıldaq edənləri anlamaq qeyri-mümkündür. Biri var zəruri şəkildə və səndən asılı olmayan səbəblərə görə kiminsə sırasına girəsən, biri də var bilərək və istəyərək sırf gözləməmək üçün yüz növ cildə girəsən.

Bu məsələdə irad bildirmək və haqqını tələb etmək pis insan olmaq deyil. Pis adam olmaq qeybət etmək, kiminsə şərləmək, kiminsə haqqına girmək, kiminsə çörəyinə bais olmaq, birinin torbasını tikməkdir. Yaxşı olar ki, pisliyi insanlar bu əməllərdə görsünlər, haqqını tələb edib doğru olanı istəməkdə yox.

***Ayşən Vəli***

# Əli Kərimli təsir altında olduğunu nümayiş etdirir

***Xalqın birliyi, vəhdəti hesabına işğal altında olan torpaqlarımız azadlığına qovuşdu. Artıq niskilli ərazilərimiz rahat nəfəs alır. Hər yerdə tikinti, bərpa, quruculuq işləri həyata keçirilir. İnsanlar öz doğma yurd-yuvalarına qayıdırlar. Hər kəsin üzü gülür, haqlı olaraq qürurlanır. Lakin yenə də müxalifət ənənəvi ampluasındadır. Yenə də uğurlarımıza, qazanılan qələbəyə kölgə salmağa çalışır. Bu da onu bir daha təsdiqləyir ki, hələ də dağıdıcı müxalif partiya funksionerləri meydan təfəkküründən, küçə davranışından xilas ola bilməyiblər.***

30 ildir ki, dağıdıcı müxalifət başbilənləri məqsədlərinin və istiqamətlərinin nədən ibarət olduğunu dərk etmirlər. Yəni, dağıdıcı ünsürlər köhnə düşüncədə və meydan təfəkküründə qalmaqdadırlar. Sadəcə, xaricdən aldıqları maliyyə yardımları hesabına əyinbaşlarını və yaşayış durumlarını dəyişiblər, ancaq düşüncə və davranışları 1988-1990-cı illərdə olduğu kimi qalmaqdadır. Misal üçün, milli maraqlara qarşı qərəzli mövqe sərgiləyir, dövlətçiliyə qarşı əsassız ittihamlar irəli sürür, xarici maraqlı dairələrin sifarişləri əsasında Bakının mərkəzində icazəsiz aksiyalar keçirməyə cəhdlər göstərirlər.



### Deyəsən, dağıdıcı müxalifət Sorosdan yeni təlimatlar alıb

Azərbaycanın hər bir uğuru dağıdıcı müxalifəti ciddi narahat edir. Bu baxımdan, sosial şəbəkələr vasitəsi ilə qərəzli, şər və böhtan xarakterli məlumatlar yayırlar. Hətta o dərəcədə qara niyyətə, bəd əməllərə sahibdirlər ki, torpaqlarımız üzərində suverenliyimizin bərpa olunmasına paxıllıq hissi ilə yanaşırlar. Çox vaxtı dəxli olmayan, mövzudan uzaq olan fikirlər səsləndirib mövqe ifadə edirlər. Əli Kərimli, Fuad Qəhrəmanlı, Cəmil Həsənli, Tofiq Yaqublu, Gültəkin Hacıbəyli və digərləri indi də deyirlər ki, "Zəngəzur dəhlizi nə zaman açılacaq", "Rus sülhməramlılara nə zaman Qarabağdan çıxacaq", "Güney Azərbaycana nə vaxt sahib olacağıq" və bu kimi hazırkı mərhələdə müzakirəsinə zərurət olmayan fikirlər səsləndirirlər. AXCP sədri Əli Kərimli sosial şəbəkədə paylaşımında yazır: "Bəs Rusiya "sülhməramlılarının" taleyi necə olacaq? 2025-ci ili gözləməyin heç bir mənası yoxdur. Müzakirə ediləcək məsələ də yoxdur. Qarabağda indi üz-üzə duran silahlı tərəflər, təmas xətti yoxdur ki, "sülhməramlının" iştirakı üçün də bəhanə olsun. Rusiya ordusunun Qarabağda qalması üçün nəinki səbəb, heç bəhanə də qalmadı. Rusiya ordusu ləngimədən Qarabağdan çıxarılmalıdır. Bəs Zəngəzur dəhlizi necə olacaq? Rusiyanın bizi Ermənistanla müharibəyə qoşmaq şansı hələ də qalırmı? Türkiyə nə deyir bu barədə? Bu məsələdə ən həlledici faktorlar nələrdir? Biz xalq olaraq nələrə imkan verməməliyik?". Qısası cəfəng, mənasız, yersiz fikirlərlə Ə.Kərimli, əslində, idarəolunan məxluq olduğunu göstərir. Həm də el məsəlində deyildiyi kimi, aşığın sözü bitəndə daley-daley edən kimi Ə.Kərimli kimilərin də danışmağa sözləri bitdiyindən dəxli olmayan ifadələrlə çıxış edirlər.

### R.Nurullayev: "Müxalifət olmaq olar, amma birinci dövlətçi olmaq lazımdır"

Milli Cəbhə Partiyasının sədri, deputat Razi Nurullayev parlamentdə çıxışı zamanı Ə.Kərimlini və trollarını haqlı mövqeyi ilə ifşa edir: "44 günlük İkinci Qarabağ savaşından sonra radikal siyasi və qeyri-siyasi qüvvələrdən ən çox eşitdiyimiz sözlər niyə Laçını azad etmədik idi. Laçın şəhəri, Zabux və Sus kəndləri nəzərdə tutulduğundan daha tez azad edildi. Prezident İlham Əliyev həqiqətən də qətiyyət və barışmazlıq nümunəsi, o cümlədən diplomatiya bacarığı göstərdi. Bəs niyə Əli Kərimli və digərləri İlham Əliyevi təbrik etmədi, xoş söz söyləmədi, üstəlik, zəfərə kölgə salmağa çalışır. Axı İlham Əliyev Şah İsmayıl Xətai, Nadir şah Əfşardan sonra ilk rəhbərdir ki, torpaq itirmir, torpaq qazanır, dünyaya səs salır və az qala dünya ilə savaşıb qalib gəlir. Bu, bizim hamımız üçün fəxr və başucalığı deyilmi? Dünyada bir ölkə göstərin ki, münaqişəni yüz faiz öz xeyrinə həll edə bilsin? Bu nümunəni də Prezident İlham Əliyev yaratdı. Laçın alındı, başladınız Xankəndi niyə separatçıların əlindədir, "niyə antiterror əməliyyatı keçirilmir" dediniz. Tədbirlər keçirildi, Xankəndi azad edildi, bütün Qarabağda suverenliyimiz bərpa edildi, separatçılar silahlarını təhvil verdilər, qaçıb dağılışdılar və bütün planları yerlə-yeksan oldu. Bunu yaratdığı ordu ilə, inandığı və etibar etdiyi qəhrəman Azərbaycan əsgərinin gücü ilə etdi. Ağılın belə dərk etmədiyi, yuxumuzda belə görmədiyimiz gerçəkliyi yaratdı. Bəs İlham Əliyev haqq etmir ki, onu təbrik edib xoş sözlər deyəsiniz? Axı o həyatını bu xalqa həsr etdiyini əməli və dünyanın haqsız tələbləri qarşısında mətanətli duruşu ilə sübut edib. Niyə qəlbinizdəki nifrəti silib ata bilmirsiniz? Məgər içinizdə qaynayan nifrətin ölkəmizə zərər verdiyini görmürsünüz?"

R.Nurullayev onu da bildirir ki, müxalifət olmaq olar, amma birinci dövlətçi olmaq lazımdır: "Barmağınızı qatlayın görək İsraildən başqa hansı ölkə cinayətkarları, xüsusən də cibində milyardlarla dollar daşıyan və dünyada söz sahibi olan birini tutub başına torba keçirsin? Ruben Vardanyan kimi bir avnatüristi və terroru dəstəkləyən cinayətkarı tutub damlamaq bilirsiniz nə deməkdir? O, İlon Maskın Mars planetini fəth etmək planından daha üstündür. Bu, ağılların kəsmədiyi bir qəhramanlıqdır. Nə qədər gec deyil, birlik olun, düşmən dəyirmanına su tökməyin, xalqla, dövlətlə bir olun ki, gələcək nəsillər siyasi tarix kitablarını oxuyanda sizi nifrətlə anmasın! Sonda, təklif edirəm ki, Prezident İlham Əliyev üçün bir orden, ad düşünək. O, təvazökardır deyə bir çox səsləndirilən təklifləri qəbul etməyəcək. Bu sahədə təkliflərim çoxdur və onu Parlament rəhbərliyi ilə bölüşə bilərəm. Yaxşı olar ki, təkliflər də Parlament rəhbərliyi tərəfindən səsləndirilsin və məmuniyyətlə dəstəkləyəcəm".

Araşdırmalarla təsdiq olunur ki, xaricə satılanların bir prinsipi var: onlar kimi düşünüb, fəaliyyət göstərməyənlər, hakimiyyətə işləyənlərdir. Dəfələrlə müxalif partiya sıralarında elələri olub ki, dövlətçilik maraqlarından çıxış edib, xarici məkrli dairələrlə əlaqələrin dayandırılması tələbini irəli sürüblər. Bu zaman partiya sədrləri tərəfindən ittiham olunub, hakimiyyətə işləməkdə günahlandırılıblar. Daha sonra isə müxtəlif qondarma ittihamlarla partiyadan uzaqlaşdırılıblar.

### Dağıdıcı müxalifət "əyləc mexanizmi" qismində çıxış edir

Müxalifət partiya sədrləri öz şəxsi maraqlarını hər bir partiya üzvünün mənafeyindən üstün tutur və Azərbaycanın milli maraqlarını zərbə altında qoymaqla "əyləc mexanizmi" qismində çıxış edirlər. Təbii ki, bu cür fəaliyyətlə cəmiyyətdə uğur qazanmaq və siyasi dəstək əldə etmək mümkün deyil. Necə ki, bunun acı nəticəsini müxalif partiyalar yaşamaqdadırlar. Ölkəmizdə keçirilən bütün seçkilərdə müxalifətin rüsvayçı məğlubiyyətlə üzləşməsi cəmiyyətin onlara vurduğu sərt şillədir, ən böyük cəzadır. Buna baxmayaq, onlar seçkilərdə uğur qazana bilməmələrinin səbəblərini elmi-siyasi təhlilini aparmırlar. Ən azı papaqlarını qarşılarına qoyub seçki məğlubiyyətinin səbəblərini müzakirə etmirlər. Bu da növbəti seçkilərdə onların yenidən acınacaqlı məğlubiyyət yaşamalarına gətirib çıxarır. Fikir verilsə bir daha aydın olar ki, AXCP, Müsavat, Real və digər dağıdıcı müxalif partiyaları daim destruktiv fəaliyyətə üstünlük veriblər. Hər zaman milli maraqlarımız, dövlət və dövlətçiliyimizə qarşı əks-kampaniya aparıblar. Bu gün bütün dünya azərbaycanlıları, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın haqq səsini dünyaya çatdırmağa çalışır, Qarabağ iqtisadi ərazilərində separatçıların və onların himayədarlarının ifşası istiqamətində müvafiq işlər görülür, dağıdıcı müxalifət isə xarici qaranlıq dairələrlə birləşib milli maraqlarımıza ziyan vurmağa cəhdlər edirlər. Bu cəhdlərin isə uğursuzluğa düçar olcağı şübhəsizdir. Çünki hər kəs Əli Kərimlinin, C.Həsənlinin, T.Yaqublunun, G.Hacıbəylinin və digərlərinin özlərinin müstəqil mövqelərinin olmadığını, daim xarici ağalarının sifarişləri ilə hərəkət etdiklərini bilirlər.

Bir sözlə, Ə.Kərimlini və onun ətrafında olanları ictimaiyyətlə yanaşı, müxalifətin konstruktiv üzvləri də tənqid edirlər. Yəni haqqın, ədalətin yanında olmaqla qərəzli mövqe sərgiləyən, şər və böhtanlarla çıxış edən dağıdıcı müxalifət partiyası sədrlərini ifşa edirlər. Bir daha cəmiyyətə çatdırırlar ki, müxalifətdə olmaq, dövlətçiliyə qarşı çıxmaq demək deyil. Ə.Kərimli, C.Həsənli, T.Yaqublu və digərləri dövlətçiyə qarşı qərəzli mövqe sərgiləyirlər. Bu isə onların təsir altında olduqlarını göstərir. Beləəri uzunmüddətli siyasətdə qala bilməz. Yəqin ki, yaxın vaxtlarda qazdıqları quyuya düşməklə, siyasətə vida deyəcəklər.

**İ.ƏLİYEV**

ANALİZ

## Elektrik cihazlarından istifadə zamanı nələrə diqqət edilməli?



**EKSPERT AYDINLIQ GƏTİRDİ**

"Həm evlərdə, həm iş yerlərində, ictimai iaşə obyektlərində və s. elektrik təsərrüfatına dair təhlükəsizlik qaydalarına mütləq ciddi riayət etmək lazımdır. Nəzərə almaq lazımdır ki, elektrik təsərrüfatında baş verən hər hansı bir nasazlıq, qığılcım, qısaqapanma, istiliyin ayrılmasının hər birinin öz təhlükə riski var. Bunlar öz növbəsində tüstülənməyə, yanğına gətirib çıxaran amillərdir. Ona görə də təhlükəsizlik qaydalarına riayət ön planda olmalıdır. Bu, bütün təyinatlı obyektlərdə əməl olunmalı haldır". Bu sözləri SİA-ya açıqlamasında təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev deyib.

Onun sözlərinə görə, ümumiyyətlə, elektrik naqillərinin çəkilməsi mütləq sertifikasiyası olan müəssisə tərəfindən həyata keçirilməlidir: "İstehsalçı müəssisəsi bilinən, keyfiyyətli elektrik naqillərindən istifadə olunmalıdır. Elektrik təsərrüfatı düzgün qiymətləndirilməlidir. Yəni, gərginlik balansı saxlanılmaqla elektrik təsərrüfatı həyata keçirilməlidir. Nəzərə alınmalıdır ki, elektrik naqillərində yüklənmə çox olarsa, bu qızmaya, alışmaya, qısaqapanma və ya yanğına gətirib çıxarar. Avtomatik qoruyucular quraşdırılmalıdır. Hər hansı qısaqapanma yaranarsa, elektrik cərəyanı ayrılır və faciənin yaşanmasının qarşısı alınır".

Ekspert sözlərinə davam edərək bildirib ki, baş verən yanğınların statistikasına baxdıqda elektrik təhlükəsizliyi səbəbindən baş verən yanğınlar böyük bir paya sahib olduğunu görürük: "Evlərdə də, təsərrüfatlarda da işləməyən naqilləri elektrik cərəyanından ayırmaq lazımdır. Elektrik cərəyanında naqilləri taxılı vəziyyətdə qoymaq, nəzarət etməmək yolverilməzdir.

Bundan əlavə, azyaşlı uşaqların da olmasını nəzərə alaraq elektrik paylayıcılarda qoruyucu qapaqları olmalıdır. Uşaqlar bilmədən elektrik cərəyanına əl vura və nəticədə bədbəxt hadisəyə gətirib çıxara bilər". Qarşıdan soyuq ayların gəldiyini xatırladaraq ekspert bildirib ki, bəzən ev isti qalsın deyə elektrik qızdırıcılarını cərəyana taxılı qoyub gedirlər: "Amma bu yanğına səbəb ola bilər. Elektriklə işləyən avadanlıqları nəzarətsiz qoymaq olmaz".

***Ləman Sərraf***

## Keçmiş məhkumun evindən 8 kiloqramdan çox heroin götürülüb

Lənkəran Şəhər Rayon Polis Şöbəsinin (ŞRPŞ) əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən rayon sakini, əvvəllər məhkum olunmuş Samid Əliyev narkotik vasitə - heroin satarkən saxlanılıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Lənkəran regional qrupunubn mətbuata açıqlamasında deyilir ki, əməliyyat tədbirlərinin davamı nəticəsində onun narkotik vasitəni əldə etdiyi şəxsin Lənkəran sakini, əvvəllər məhkum olunmuş Bünyad Heydərov olduğu müəyyən edilib və sonuncu da polis əməkdaşları tərəfindən saxlanılıb. Keçirilən baxış zamanı B.Heydərovun üzərindən və yaşadığı evdən ümumilikdə 8 kiloqram 300 qram heroin aşkarlanaraq götürülüb. Onun sözügedən narkotik vasitəni satışının təşkil olunmasından ötrü xaricdə yaşayan narkotacir vasitəsilə əldə etdiyi müəyyən olunub.



Bundan əlavə, Lənkəran ŞRPŞ-nin əməkdaşlarının son bir ay ərzində narkotiklərin qanunsuz dövriyyəsinə qarşı keçirdikləri əməliyyatlar zamanı ümumilikdə 32 nəfər saxlanılıb. Faktlarla bağlı zəruri istintaq hərəkətləri davam etdirilir.

# Ermənistana yardım yağır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*



## *Xocalıdakı qətliama susanlar Xankəndidən sivil yollarla köçən ermənilərə yardım edir*









**Azərbaycanın Qarabağda keçirdiyi antiterror tədbirlərindən sonra ermənilər könüllü olaraq Ermənistana və 3-cü ölkəyə köç edirlər. Azərbaycan hökuməti onlara ərazidə yaşamaq imkanları yaradır, bundan sonrakı həyatlarını Azərbaycan qanunlarına görə, Azərbaycanın şəxsiyyət vəsiqəsi ilə yaşayacaqları barədə məlumatlandırılıblar. Bunun üçün onlara lazımı şərait yaradılacaq, vətəndaş olaraq bütün imkanlar tanınacaq. Bəzi ermənilər bununla razılaşaraq ərazini tərk etmək istəməsə də, əksəriyyəti Ermənistana və ya 3-cü ölkəyə qayıtmağa qərar verir. Ərazidən köçən ermənilərə bütün yardımlar edilir, qida, dərman, geyimlə təmin olunurlar, səhhətində problem olan ermənilərə həkim köməyi göstərilir.**

Lakin Azərbaycanın Qarabağı 30 illik işğaldan azad etməsi Ermənistanın müttəfiqləri arasında narahatlıqlara səbəb olub. Dünya ölkələri, beynəlxalq təşkilatlar ermənilərin zülmə məruz qalmaları, evlərindən qovulmaları barədə iddialarla çıxış edirlər. 2 gün əvvəl Cənubi Kiprin Yunan Administrasiyası beynəlxalq ictimaiyyəti Azərbaycana qarşı tədbir görməyə çağıraraq, evlərini tərk edən ermənilərə ev sahibliyi edə biləcəklərini bildirib.

Kanada Qarabağda yaşayan ermənilərinə 2,5 milyon dollar humanitar yardım edəcək. Bu barədə ölkənin xarici işlər naziri Melani Coli özünün sosial şəbəkə səhifəsində yazıb: "Kanada Dağlıq Qarabağ bölgəsi ermənilərinin yanındadır. 2,5 milyon dollarlıq ilkin yardım ilə Kanada həmin insanlara humanitar yardım göstərəcək".

Həmçinin, İranın Qızıl Aypara Cəmiyyəti Qarabağdan köçən ermənilər üçün 50 ton humanitar yardım göndərəcək. Yardıma gigiyena vasitələri, qida, ədyal, geyim və istilik avadanlığı daxildir.

Sentyabrın 29-da Fransa hökuməti Qarabağdan Ermənistana könüllü gedən şəxslərə 5 ton humanitar yardım göndərdi. 5 ton tibbi ləvazimat və dərman preparatlarından ibarət humanitar yardım Boeing 737-85R(SF) təyyarəsi ilə Ermənistana aparılıb.

ABŞ və Avropa Komissiyası da Ermənistana humanitar yardım ayırıb. Vaşinqtonun yardımı 11,5 milyon dollar məbləğindədir. Avropa Komissiyası isə Ermənistana 5 milyon avro verəcək. Bu yardımlar İrəvana Azərbaycanın Qarabağ bölgəsini tərk edən erməni sakinlərin problemlərinin həlli üçün ayrılıb.

Danimarka Qarabağdan könüllü köçənlərə humanitar yardım göstərmək üçün Ermənistana 1 milyon kron ayırıb. Bu barədə Danimarka Xarici İşlər Nazirliyi məlumat yayıb. Qeyd olunur ki, yardım Danimarka Qızıl Xaç Cəmiyyəti vasitəsilə həyata keçiriləcək.

3 gün öncə Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağdan köç edən ermənilərə göstəriləcək yardımla bağlı dövlətin proqramını da açıqladı. Oktyabrın ayının 1-dən adambaşına yaşayış üçün 40 min dram (172,11 AZN), kommunal xərclərin ödənilməsinə daha 10 min dram (43,03 AZN) (ümumilikdə 50 min dram və ya təxminən 130 dollar) ayrılacaq. Proqram ən azı 6 ay müddətində qüvvədə olacaq və xüsusi mərkəzlərdə olanlar və Ermənistanda daşınmaz əmlakı olanlar istisna olmaqla, bütün köç edən vətəndaşları əhatə edəcək. Gələn həftə Qarabağ sakinlərinə 100 min dram (təxminən 430,28 AZN) məbləğində birdəfəlik müavinətin ödənilməsinə başlanılacaq.

Xankəndidəki vəziyyəti şərh edən BMT-nin rəsmisi Stefan Düjarrik isə bildirib ki, baş katib ərazidə erməni əhalinin yerdəyişməsindən narahatdır. "Köçkün əhalinin hüquqlarının müdafiəsi və insanların haqlı olduqları humanitar dəstəyi alması vacibdir" deyən Dujarrik əlavə edib ki, BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi İdarəsinin nümayəndələri Ermənistanın cənubundadır. Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Agentliyi (UNHCR) də ermənilərə humanitar yardım göstərir.

Bu arada BMT-nin İnsan Haqları üzrə Ali Komissarı Folker Türk də humanitar vəziyyəti narahatlıqla izlədiyini bildirib: "Ərazidəki etnik erməni əhalinin hüquqlarının qorunması və bütün hərəkətlərin beynəlxalq hüquqa əsaslanması vacibdir. Bütün mülki şəxslərin müdafiəsi mütləq prioritet olmalıdır. Köç edənlərin humanitar yardıma çıxışı olmalıdır", - deyə o vurğulayıb.

Cənab Türk bu sözləri işlədərkən vaxtilə Qarabağdan zorla çıxarılan, soyqırıma məruz qalan azərbaycanlıları unudub sanki. Xocalıda qətl edilən insanlar, evindən zorla çıxarılan ailələr, qarnı yarılıb körpəsi süngüyə keçirilən hamilə qadınlar, başı kəsilib top kimi oynadılan uşaqlar, atanın gözü önündə zorladıqları qızlar, diri-diri yandırılan insanlar – bütün bunları ermənilər törətmişdi. O zaman harada isə beynəlxalq təşkilatlar, dünyəvi dəyərlər, humanizm normaları?

Dövlətlər etnik, dini azlıqların öz mədəni kontekstində yaşamasını, öz dinlərinə etiqad etməsini və ya öz dillərində danışmaq hüququnu tanımağı öhdəlik kimi yerinə yetirməlidir və Azərbaycan bu gün bunu tam təmin edir. Xankəndində yaşayan ermənilərin şəhəri tərk etmək istəyi tamamilə könüllüdür, ərazidən getmək istəyən ermənilərə Azərbaycan dövləti kömək edir, onlar qida, geyim, bütün humanitar yardımlarla təmin olunurlar. Ərazidə yaşayan ermənilərə 40 tonluq humanitar yardım ayıran Azərbaycan dövləti I Qarabağ Müharibəsində Qarabağda öldürülən, qətl edilən, dərisi soyulan azərbaycanlılara edilənı ermənilərə etməz, çünki qanında, genində insanlıq, vicdan, mərhəmət, sülh, sevgi daşıyan bir xalq bunu bacarmaz.

Lakin Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) köçənlərə qarşı pis rəftarın qeydə alınmadığını açıqlayıb. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ermənistan nümayəndəsi Kavita Belani bildirib ki, Azərbaycan tərəfi tərəfindən mühacirlərə qarşı pis rəftar faktı olmayıb. Digər tərəfdən, Azərbaycan prosesi yaxından izləmək üçün BMT-ni Qarabağa dəvət edib. Qarabağı 30 il işğal altında saxlayan qondarma administrasiya BMT-nin bölgəyə girişinə imkan verməyib.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
3 oktyabr
2023-cü il

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Kirayə müqaviləsi imzalamayanları hansı problemlər gözləyir?

*"Başqa ölkələrlə müqayisədə Azərbaycanda xüsusilə də, Bakı şəhəri və ətraf qəsəbələrdə kirayə mənzilə tələbat hər il keçdikcə daha da artır. Bu artıma səbəb kimi həm Rusiya və Ukrayna arasında olan müharibəni, həm də Bakı şəhərində tikilən yeni bina evlərinin tikintisi başa çatana qədər köçürülmüş sakinlərin kirayə mənzillərə çıxarılmasını qeyd etmək olar.*




EKSPERT AÇIQLADI

Digər bir əsaslı səbəb kimi isə ali məktəblərin paytaxt Bakıda olmasıdır. Belə ki ali məktəblərə qəbul olmuş tələbələr burada kirayə mənzillər götürür və bu da öz növbəsində kirayə mənzil bazarına təsirsiz ötüşmür. Paytaxtda kirayə mənzil bazarında bahalaşmaya və mənzil çatışmamazlığına gətirib çıxarır. Mən bir mütəxəssis kimi deyə bilərəm ki kirayə götürülə mənzillərin 96 faizində kirayə götürənlə əmlak sahibi arasında kirayə müqaviləsi imzalanmır. Bu da gələcəkdə bir problem olduğu təqdirdə onlar arasında söz-söhbətə və dava-dalaşa səbəb olur". Bu sözləri SİA-ya açıqlamasında daşınmaz əmlak üzrə ekspert Anar Nəsirov deyib.

Onun sözlərinə görə, bu halların qarşısını almaq üçün kirayə götürən və kirayə verən gərək kirayə müqaviləsini bağlamaqda maraqlı olsun: "Bir çox hallarda əmlakını kirayə verən sahibkar kirayə pulundan gələn gəlirdən 14% vergi verməmək üçün ya vergini kirayə götürənin boynuna qoymaq istəyir, ya da o müqavilə bağlamamaq üçün müştəriyə kirayə müqaviləsi bağlamayacağını əsas şərt kimi irəli sürür. Bu iki seçim arasında qalan kirayə götürən isə mənzili itirməmək üçün məcburi qaydada sahibkarın sözünü eşidir və müqavilə bağlamadan mənzili kirayə götürür. Kirayə götürən gələcəkdə özünü müqavilə ilə sığortalaya bilmədiyi üçün sahibkar mənzilin qiymətini tez-tez qaldırır və müştəri bir çox hallarda onsuzda köhnə və nəmdaş hala düşmüş əşya və avadanlıqlar, o cümlədən evin təmiri guya korlandığı üçün sahibkara əlavə təzminat ödəməli olur".

Ekspert sözlərinə davam edərək bildirib ki, bir çox təsadüf hallarda isə kirayə verən əmlak sahibi olmur: "Yəni, həmin şəxs əmlakı sahibindən xəbərsiz kirayə verir. Bu zaman kirayə götürən özünü riskə atır və gələcəkdə kiçik bir problem yarandığı təqdirdə əmlak sahibi dərhal onu mənzildən çıxarır. Bu kimi problemlərin yaşanmaması üçün ev sahibi və kirayə götürən arasında kirayə müqaviləsi bağlanılmalıdır. Çünki müqavilə imzalanmaması gələcəkdə problemlərin həllində böyük çəkişmələrin yaranmasına səbəb olur. Misal üçün evi heç bir müqavilə bağlamadan kirayə verən əmlak sahibi bilməlidir ki, müqavilənin olması ona gizdətdiyi vergidən daha çox ziyan vura bilər. Belə ki kirayəçi evdə olan əşya, avadanlıqlara və təmir işlərinə ziyan vura bilər. Bu zaman əgər ev sahibinin əlində razılaşdırılmış bir kirayə müqaviləsi yoxdursa onda o dəymiş ziyanı kirayəçidən almaq müşkül məsələyə çevrilir. Bu artıq kirayəçinin insafına qalır. Əmlak sahibi kirayə müqaviləsi bağlamadığı üçün təkcə maddi ziyanla qurtarmır. Belə ki kirayə verdiyi əmlakda əgər heç bir müqavilə yoxdursa, o həm də hüquqi məsuliyyət daşıyır. Kirayəçi yaşadığı dövrdə həmin mənzildə hər hansı cinayət tərkibli bir hadisə baş verərsə əlində təsdiq edilmiş kirayə müqaviləsi olmadığı təqdirdə əmlakın sahibi baş vermiş hadisəyə görədə məsuliyyət daşıyır".

"Daşınmaz əmlak üzrə ekspert kimi kirayə götürənə və kirayə verənə razılaşmaları bənd-bənd yazmaqla kirayə müqavilə bağlamalarını məsləhət görürəm. Çünki bu hər iki tərəfin öz hüquqlarını qorumaq və öz öhdəliklərini yerinə yetirmələri üçün yeganə təsdiqli razılaşmadır. Yazılı razılaşmadan isə boyun qaçırmaq olmaz. Son sözüm əmlakını icarəyə verənlər üçündür, siz əmlakınızı yazılı kirayə müqaviləsi olmadan verdiyinizdə mənzildə baş verə biləcək hər hansısa bir cinayət işinə görə məsuliyyət daşıyırsınız. Ona görə əmlakınızı kirayə verərkən yaxşıca düşünməyinizi tövsiyyə edirəm",- deyə ekspert əlavə edib.

***Ləman Sərraf***

# "Nar" metroda şəbəkəsinigücləndirir




**"Nar" üstün müştəri təcrübəsinin təqdim edilməsi məqsədilə metro ərazisində təkmilləşdirmə işləri aparıb. Bunun nəticəsində Bakı metrosunda zəng və internet xidmətinin keyfiyyəti dəfələrlə yüksəldilib. Aparılmış təkmilləşdirmə işləri şirkətin müştəri məmnuniyyəti strategiyasının ayrılmaz hissəsidir. "Nar"ın əsas məqsədi abunəçilərini daima diqqət mərkəzində saxlamaqla onlara sərfəli şərtlərlə yüksək keyfiyyətli xidmətlərin təqdim edilməsidir.**

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# İşə qəbul zamanı şəxsdən məhkumluq arayışı istənilməlidir?

"Şəxslərə məhkumluğun olması (olmaması) barədə arayışların verilməsi "Fərdi məlumatlar haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"nin 3.1.4-cü yarımbəndinə uyğun hazırlanmaqla Azərbaycan Respublikasının vətəndaşlarına, ölkə ərazisində yaşayan (yaşamış) əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə (bundan sonra - şəxs) məhkumluq barədə arayışların





verilməsi qaydalarını tənzimləyir". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Onun sözlərinə görə, məhkumluq barədə arayışların verilməsi və bununla bağlı müraciətlərin qəbulu Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi, şəhər, rayon polis idarə və şöbələr tərəfindən həyata keçirilir: "Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli 706 nömrəli Fərmanına müvafiq olaraq məhkumluq haqqında arayışlar eyni zamanda Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən "ASAN xidmət" mərkəzlərində verilir.

Hər bir fiziki şəxs məhkumluq barədə arayışı yalnız özü haqqında ala bilər. Şəxsin özünün iştirakı mümkün olmadıqda, onun ərizəsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada etibarnamə ilə müvəkkil etdiyi şəxs tərəfindən təqdim olunur. Yetkinlik yaşına çatmayan, qəyyumluq və himayəçilik təyin olunmuş şəxslərə məhkumluq barədə arayış onların valideynlərinin və digər qanuni nümayəndələrinin ərizələrinə əsasən verilir. Məhkumluq barədə arayışın verilməsi ödənişsizdir. Arayış dərhal verilir. Şəxsin məhkumluğu olduqda və bununla bağlı əlavə araşdırma zərurəti yarandıqda arayış 1 iş günü müddətində verilir".

***Ayşən Vəli***

AYDINLIQ GƏTİRİLDİ

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4000